41_27 IYUl-QARA.qxd 10/30/2025 8:19 PM Page 1

UNİKAL

№41 (2271) 31 oktyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# İcra başçılarının həbsində Ramiz Mehdiyev izi...



Səh.6

## Eldar Əzizovdan sərt sözlər:

### Qədirbilməz məmurlar xəyanət yoluna düşüb"

*Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın təsərrüfat subyektlərinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib. "Unikal" xəbər verir ki, müşavirədə qış mövsümünə hazırlıq, Yeni il tədbirlərinin keçirilməsi ilə bağlı iş planı, Prezident İlham Əliyevin Azərbaycan paytaxtında həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş tapşırıqlarının icrası və şəhərin parklarında gül və yaşıllıqların dizaynı müzakirə edilib. Rayon İcra Hakimiyyətləri başçılarına Yeni ilə hazırlıqla bağlı müvafiq tapşırıqlar verilib. Müşavirədə həmçinin mümkün qar yağması ilə bağlı hərtərəfli tədbirlər planı qəbul edilib. Müzakirə zamanı Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin işinə xüsusi diqqət yetirilib. Trestin rəhbərliyi daxili audit zamanı aşkar edilmiş nöqsanlara görə ciddi...*

Səh.8

## "Hazırkı Azərbaycan qanunvericiliyi kifayət qədər sərtdir"



*Milli Məclisin deputatı Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, erkən nikah səbəbindən 17 yaşlı qızın həyatını itirməsindən, bu cür nikahların qarşısının alınması üçün cəzaların hansı formada sərtləşdirilməsindən, restoran sahibləri belə halların qarşısının alınması üçün cütlüklərdən hansı sənədləri...*

Səh.4

## Ramiz Mehdiyevə verilən bütün fəxri adlar və ordenlər silindi



*Cinayət məsuliyyətinə cəlb edilən Prezident Administrasiyanın (PA) sabiq rəhbəri Ramiz Mehdiyevin bütün fəxri adlar, ordenlər silinib. "Unikal" xəbər verir ki, R.Mehdiyevlə bağlı rəsmi portalda axtarış zamanı orden və medallarla bağlı heç bir məlumat tapılmır. Qeyd edək ki, Səbail Rayon Məhkəməsinin qərarı...*

Səh.2

## Teymur Musayevdən qəribə gediş



*Bu ilin mayında Səhiyyə Nazirliyində "Səhiyyə əlaçısı" döş nişanının verilməsi ilə bağlı qalmaqal yaşandığına dair xəbər yayılmışdı. Həmin vaxt yerli KİV-lər yazırdı ki, bir qrup səhiyyə işçisi sözügedən mükafatın verilməsində demək olar, hər il haqsızlığa yol verildiyini iddia edərək...*

Səh.8

41_27 IYUI-QARA.qxd 10/30/2025 8:22 PM Page 2



# Azərbaycan məşhurlarının dəbdəbəli həyatı - 500 minlik ev, 220 minlik libas...

***Bahalı həyat tərzi ilə diqqət çəkən azərbaycanlı məşhurlar bəzən yeni aldıqları, bahalı aksessuarlar, maşın və telefon nömrələri, lüks avtomobillər, böyük evlərlə gündəm olublar. Artıq demək olar ki, "lüks və bahalı" sözləri bu tanınmışların həyat tərzinə çevrilib. Onlar bu barədə ya sosial şəbəkədə paylaşımlar ediblər ya da ki, verilişlərdə özləri açıqlayıblar.***

"Unikal" həmin məşhurların bəzilərini oxuculara təqdim edir:

**Əməkdar artist Coşqun Rəhimov**



Aktyor bir neçə gün əvvəl iştirak etdiyi verilişlərdən birində 30 000 AZN-lik telefon nömrəsi olduğunu etiraf edib. O "Efirdən kənar"a qonaq olan zaman aparıcı "Telefon nömrəniz xüsusi bir rəqəmlərdən ibarətdir və Azərbaycanda satılmır. Satılanda isə fantastik qiymətdir. Hazırda qiyməti 25-30 min manatdır. Maşın nömrəniz xüsusidir" sözlərini deyib. Bunu təsdiqləyən C.Rəhimov "Bunlar hədiyyə və təsadüfdür. Buna köklənməmişəm. Hobbi sonradan xəstəliyə çevrilir. Olmayanda insan başlayır aqresiv olmağa. Hansısa yaş dövrünə kimi hobbim olub" sözlərini əlavə edib.

**Xalq artisti Röya Ayxan**



İfaçı mətbuatda 220 932 AZN-lik bahalı "look"u ilə uzun müddət müzakirələrə səbəb olub. Əynindəki bahalı geyimi "Elisabetta Franchi" markasına aid olub. Libasın dəyəri 1060 dollar olub (təxminən 1802 AZN) Sənətçinin ayaqqabısı "Giuseppe Zanotti" brendinə aiddir, qiyməti isə 1100 dollar olub (təxminən 1870 AZN) O sarı rəngli geyimlərini "Bulgari" brendinə aid bahalı zinət əşyaları ilə tamamlayıb. Boyunbağısının qiyməti 82 000 dollar (təxminən 139 400 AZN), sırğası 26300 dollar (təxminən 44 710 AZN), üzüyü isə 19500 dollar (təxminən 33 150 AZN) olub.

**Müğənni Bahar Lətifqızı**



Bir neçə gün əvvəl "Rəngarəng" verilişinə qonaq olan müğənni Ağ Şəhərdən mənzil aldığını deyib. Evin qiyməti nə az nə çox 500 000 AZN olub. təxminən yarım milyon manata alıb. Bahar Lətifqızı evinin dəyərini gizlətmədiyini qeyd edib: "Evin qiyməti təxminən yarım milyona yaxındır. Ağ Şəhər tərəfdə yerləşdiyi üçün bahadır. Mən bunu gizlətmirəm. 180 min manat borcum var idi, onu da tədricən ödəyirəm".

**Əməkdar artist Ədalət Şükürov**



Sənətçi 14 000 AZN-lik saatı müzakirələrə səbəb olub. O sosial şəbəkə hesabında məclislərdən birində olan görüntülərini paylaşıb. Şükürov qolundakı yeni və bahalı saatı ilə diqqət çəkib. Aksessuar İsveçrənin məşhur saat markalarından olan "Jaeger-lecoultre"ə aid olub. Qeyri-adi funksiyası ilə seçilən qol saatının qiyməti 8 680 dollardır. (təxminən 14 min 756 AZN)

**Model Diana Əhədpur**

Lüks həyatı ilə daim diqqət mərkəzində olan məşhurlardan



biridə model Diana Əhədpurdur. O 122 000 AZN-lik çantası müzakirələrə səbəb olmuşdu. Model sosial şəbəkədə "Hermes" brendinin "Birkin alligator" modelli çantası ilə olan fotosunu paylaşıb. Məlumatlara görə, bu aksessuarın qiyməti 122 000 AZN idi.

**Müğənni Vəfa Şərifova**



Vəfa şou-biznesdə ən bahalı maşın sürən sənətçi Vəfa Şərifovadır desək yerinə düşər. O 400 000 AZN-lik qara rəgli "Gelendewagen" markalı avtomobil idarə edir. Maşının bahalı "10TV100" nömrə nişanı da var.

**Müğənni Təranə Qumral**



Sənətçi bir neçə gün əvvəl dəvət olunduğu verilişlərdən birinə 120 000 AZN dəyərində qızıl taxıb. Veriliş zamanı onun qızıllarını ekpert dəyərləndirib. Sənətçinin üzərindəki saat, qolbağlar, üzüklər və boyunbağılar ümumilikdə 120 000 AZN təşkil edib./baku.ws



## Şəbnəm yeni maşını və villası üçün milyon xərclədi

***Müğənni Şəbnəm Tovuzlu yeni avtomobil və villa alıb.***

Bu barədə aparıcı Zaur Kamal "Həmin Zaur" verilişində bildirib. O, ifaçının 2023-cü il "Mercedes Gelandewagen" markalı maşın aldığını qeyd edib.

Proqramda qonaq olan Şəbnəm Tovuzlu bu məlumatı təsdiqləyib və avtomobili 250 min dollara (təxminən 425 min manat) aldığını bildirib.

İfaçı həmçinin 800 min manata hovuzlu villa da aldığını etiraf edib.

## Mənzurə Musayeva arıqlamaq üçün sirkə içdi, xəstəxanalıq oldu

***Müğənni Mənzurə Musayevanın səhhətində problem yaranıb.***



Sənətçi bu haqda "Rəngarəng" proqramında danışıb. O bildirib ki, arıqlamaq üçün kivi sirkəsi içib və halı pisləşib: "Yemək yemədim. Kivi sirkəsi suya töküb içdim. Gördüm ki, narahatam, başım gicəllənir, pisəm. Həkimlərə getdim, müayinələrdən keçdim. Bütün analizləri verdim. Amma təkcə qan analizi vermək lazım imiş. Birdəfəlik qanı ver, gör, nə var. Sən demə, qanımda 5 vitamin yuyulub gedib. Kivi sirkəsi çox arıqladır, amma problem yaradır".

## "Atam anamın başqa kişidən olan uşağına soyadını verdi" - Səidə Dadaşova



***Müğənni Səidə Dadaşova xalası Lalə Dadaşovanın onunla bağlı iddialarına cavab verib.***

"Unikal" xəbər verir ki, "Elgizlə izlə" verilişinə zəng edən Səidə atası, mərhum Xalq artisti Rafael Dadaşovun onu anasının ailəsi ilə görüşməyə qoymadığını deyib:

"Hamısı yalandır. Məni öz aləmində qəbul etmir, çünki yaltaq deyiləm. Onlar istəyiblər onların dediyini icra edib, onlardan asılı olasan. Atam məni onlara yaxın buraxmayıb, məni onlardan uzaq tutub. Bilirdi ki, başıma oyun açacaqlar. İcazə vermirdi ki, onlarla ünsiyyət qurum. Bəzən elə yerlər var idi ki, deyirdi, onlar oradadırsa, biz gəlmirik. Deyirdi ki, qızımı sizdən uzaq tuturam. Atamın səsini eşitmisiniz. Lalə xanım, özünüzlə məşğul ola bilmədiniz? Gedin balalarınızı küçələrdən yığın. Səidə küçələrdə ola bilməz. 15 yaşımdan Filarmoniyada solist olmuşam, işləmişəm. İşləmişəm ki, anama baxım, heç kimə ağız açmasın. Deyirdim ki, ölmüşəm ki, bacıya ağız açasan? İlk maaşım 10 şirvan idi, anama dedim ki, nə istəsən səne alacağam. Anamın başqa kişidən olan uşağına baxdım, küçədə qalmasın, adı bədnam çıxmasın deyə, atam ona soyadını verdi. Mən problem yaşadım. Çoxları elə bilirdi uşaq mənimdir. Deyirdilər, bu yaşda uşaq?".

41_27 IYUl-QARA.qxd 10/30/2025 8:23 PM Page 3





## Eldar Əzizovdan sərt sözlər: “Qədirbilməz məmurlar xəyanət yoluna düşüb”

***Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın təsərrüfat subyektlərinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib.***

”Unikal” xəbər verir ki, müşavirədə qış mövsümünə hazırlıq, Yeni il tədbirlərinin keçirilməsi ilə bağlı iş planı, Prezident İlham Əliyevin Azərbaycan paytaxtında həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş tapşırıqlarının icrası və şəhərin parklarında gül və yaşıllıqların dizaynı müzakirə edilib.

Rayon İcra Hakimiyyətləri başçılarına Yeni ilə hazırlıqla bağlı müvafiq tapşırıqlar verilib. Müşavirədə həmçinin mümkün qar yağması ilə bağlı hərtərəfli tədbirlər planı qəbul edilib.

Müzakirə zamanı Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin işinə xüsusi diqqət yetirilib. Trestin rəhbərliyi daxili audit zamanı aşkar edilmiş nöqsanlara görə ciddi tənqid edilib. Bununla əlaqədar Bakı Şəhər Mənzil və Kommunal Təsərrüfatı Departamentinin rəhbərliyinə trestin rəhbərinin vəzifədə saxlanılmasının mümkünlüyünü nəzərdən keçirmək tapşırılıb.

Müşavirədə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qeyd edib ki, bu gün Prezident İlham Əliyevin şəxsiyyəti və onun ardıcıl siyasəti sayəsində Azərbaycan ilk dəfə olaraq qlobal siyasi səhnədə əhəmiyyətli yer tutub. O, dövlət proqramlarının uğurla həyata keçirilməsi üçün peşəkarlığın, məsuliyyətin və vicdanlı yanaşmanın vacib olduğunu vurğulayıb.

Eldar Əzizov qeyd edib ki, bu gün dövlət qulluqçularının əksəriyyəti öz vəzifələrini vicdanla yerinə yetirir. Lakin etik pozuntular və vəzifə səlahiyyətlərindən sui-istifadə halları tamamilə qəbuledilməzdir. O, vurğulayıb ki, bu cür davranış dövlət qulluğu prinsiplərinə zidd və dərhal və obyektiv şəkildə qiymətləndirilməlidir.

”Bəzən məsul vəzifələrin həvalə edildiyi bəzi qədirbilməz məmurların xəstə ambisiyalarla idarə olunaraq deqradasiyaya uğradığı və qəbuledilməz hərəkətlər və hətta xəyanət yoluna düşdüyü hallarla qarşılaşırıq. Qoy hamı xatırlasın ki, Azərbaycan Prezidentinin siyasəti sayəsində dövlət vahid bir qurumdur, o cümlədən praktikada gördüyümüz kimi özünü səhlənkar məmurlardan təmizləməyə qadirdir. Bütün məmurlar unutmamalıdırlar ki, onların işini qiymətləndirmək üçün əsas meyar məsuliyyət və sədaqətdir”, - deyə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı bildirib.

Merin sözlərinə görə, hər bir dövlət məmuru cəmiyyət qarşısında məsuliyyətini xatırlamalı və vətəndaşların maraqları naminə çalışmalı, təvazökarlıq, dürüstlük və peşəsinə sədaqət nümayiş etdirməlidir.

# Teymur Musayevdən qəriba gediş

## Nazir niyə bu il “Səhiyyə əlaçısı” medalını vermədi? - Təfərrüatlar

***Bu ilin mayında Səhiyyə Nazirliyində “Səhiyyə əlaçısı” döş nişanının verilməsi ilə bağlı qalmaqal yaşandığına dair xəbər yayılmışdı. Həmin vaxt yerli KİV-lər yazırdı ki, bir qrup səhiyyə işçisi sözügedən mükafatın verilməsində dəmək olar, hər il haqsızlığa yol verildiyini iddia edərək təltiflərdən narazı qaldıqlarını bildiriblər.***

Belə ki, hər il iyun ayının 17-i ölkədə tibb işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Həmin gün bir neçə səhiyyə işçisi “Səhiyyə əlaçısı” medalı ilə təltif edilir. “Bu il də medalın kimlərə veriləcəyi ilə bağlı müəyyən şübhələr var. Səhiyyə işçiləri ötən il bu məsələdə haqsızlığa yol verildiyinin şahidi olduqlarından bunun yenə təkrar olunacağını düşünürlər” - məlumatda deyilirdi.



Hətta adının çəkilməsini istəməyən mənbə “Teleqraf”a açıqlamasında bildirmişdi ki, ötən il “Səhiyyə əlaçısı” döş nişanı verilən zaman əsasnamə qaydaları pozulub. İddialara görə 2024-cü ildə Səhiyyə Nazirliyinin Aparat rəhbəri Tural Elxan oğlu Babayev və nazirliyin Mətbuat xidmətinin rəhbəri Pərviz Bəşir oğlu Əbubəkirov nazir tərəfindən bu döş nişanına layiq görülmüşdülər. Lakin onların hansı səmərəli xidmətlərinə görə bu medala layiq görüldükləri bəlli deyildi.

Halbuki, əsasnamənin birinci bəndinə görə, “Səhiyyə əlaçısı” döş nişanına səhiyyə sahəsində 10 il səmərəli xidmət göstərmiş şəxslər layiq görülür. Həmçinin, bu döş nişanı ilə təltif edilən şəxsə maaşının 3 misli qədər mükafat verilir.

“Tural Babayev 2022-ci ildən, Pərviz Əbubəkirov isə 2018-ci ildən səhiyyə sahəsində çalışır. Yəni, səhiyyə sahəsində işləmələrinin 10 ili tamam olmayıb. Bu, əsasnamənin birinci bəndinə ziddir. Məlumata görə, aparat rəhbəri Tural Babayevin atası ilə səhiyyə naziri dostdurlar. Onlar uzun müddət “Tusi” klinikasında birlikdə çalışıblar. T.Babayevin təltif olunmasında məhz həmin amilin böyük rol oynadığı vurğulanır” - deyə media may ayında yazmışdı.

İndi isə məlum olub ki, hər il iyunun 17-də - tibb işçilərinin peşə bayramı günü bir neçə səhiyyə əməkdaşı “Səhiyyə əlaçısı” döş nişanı ilə təltif edilməsinə baxmayaraq ötən illə bağlı qalmaqalın ardından səhiyyə naziri Teymur Musayev fərqli və qəribə qərar qəbul edib! Belə ki, “Səhiyyə əlaçısı” döş nişanının kimlərə veriləcəyi ilə bağlı müzakirələr zamanı nazir qərara alıb ki, heç kim təltif edilməsin. Bununla da tibb işçilərinin peşə bayramı ərəfəsində ilk dəfə “Səhiyyə əlaçısı” döş nişanı təqdim olunmayıb.

Əldə etdiyimiz məlumata görə, nazirin bu yeni qərarı da səhiyyə işçiləri arasında narazılıqla qarşılanıb.

“Unikal”ın araşdırması zamanı isə maraqlı məqamlar ortaya çıxıb. Məlum olub ki, sözügedən döş nişanı 2012-ci ildə o vaxtkı səhiyyə naziri, bu yaxınlarda dünyasını dəyişən Oqtay Şirəliyevin əmri ilə tətbiq olunmağa başlayıb. Bu barədə həmin ilin sonlarında, dekabr ayının 29-da Səhiyyə Nazirliyində keçirilən geniş kollegiya iclasındakı çıxışı zamanı Şirəliyev bildirmişdi. Bunun ardınca isə xüsusi nömrələnmiş və nəfis şəkildə hazırlanmış nişanlar nazir tərəfindən sahiblərinə təqdim olunmuşdu. Bu, sonrakı illərdə də nazirliyin ilsonu kollegiya iclaslarında davam edib, bir müddət sonra isə sözügedən döş nişanı həm də hər il iyunun 17-də - tibb işçilərinin peşə bayramı günü təqdim edilməyə başlanıb. Və ən əsası, mərhum nazirin zamanında haqqında danışılan təltiflər heç vaxt müzakirə və mübahisə mövzusuna çevrilməyib. “Yalnız Teymur Musayev ötən il ”Səhiyyə əlaçısı” döş nişanının verilməsi qaydalarına dair Səhiyyə Nazirliyinin müvafiq əsasnaməsini pozaraq iki nəfəri təltif etdikdən sonra ortaya narazılıq çıxdı. Teymur müəllimin özü yaratdığı qalmaqalı indi həmin döş nişanını yerli-dibli verməməklə aradan qaldırmağa çalışması heç bir məntiqə sığmır. Layiqli şəxsləri təltif etmək kifayətdir ki, problem də olmasın” - deyə uzun müddət səhiyyə sistemində çalışmış tibb mütəxəssisi adının çəkilməməsi şərti ilə qəzetimizin əməkdaşına deyib. Onun sözlərinə görə, kimlərinsə düzgün olmayan seçimi ucbatından yaranmış narazılığı əsas götürüb bəzən ən ağır şərtlər altında ömrünü xalqın sağlamlığına həsr etmiş insanları öz peşə bayramlarında bir döş nişanı ilə təltif edərək sevindirmək imkanından məhrum etmək absurddur.

Bütün bunlardan sonra maraqlı sual yaranır: görəsən, Səhiyyə Nazirliyinin bu ilin sonunda keçirilməsi gözlənilən geniş kollegiya iclasında Teymur Musayev özünün qəribə qərarından daşınacaqmı, sözügedən döş nişanının verilməsindən imtina etdiyi üçün səhiyyə işçiləri arasında yaranan yeni narazılığı nəzərə alaraq haqqı çatanları “Səhiyyə əlaçısı” olaraq təltif edəcəkmi?!

***P.S. Onu da deyək ki, Səhiyyə Nazirliyi istər ötən il məlum döş nişanı ilə təltif edilmiş şəxslər ətrafında, istərsə də bu il həmin döş nişanının verilməməsinə dair yaranan qalmaqala hər hansı münasibət bildirməyib. Nazirlik deyilənləri nə təsdiq, nə də təkzib edib.***

***Sənan Mirzə***

41_27 IYUl-QARA.qxd 10/30/2025 10:15 PM Page 4



# Nahar etmək istəyərkən Ermənistan hərbçiləri tərəfindən girov götürülüblər - MƏHKƏMƏ

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 30-da davam etdirilib.***

"Unikal" xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Zeynal Ağayev bildirib ki, bir sıra zərərçəkmiş şəxs məhkəməyə ərizə ilə müraciət edərək məhkəmə prosesində iştirak edə bilməyəcəklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini və elan olunmasını xahiş ediblər.

Tərəflər həmin ifadələrin məhkəmədə elan olunmasına etiraz etməyiblər.

Bundan sonra məhkəmə müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi əlavə sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Davit İşxanyanın vəsatəti əsasında 2020-ci ildə Tovuz hadisələrindən (Tovuz döyüşləri - red.) sonra lentə alınmış videomaterial tədqiq olunub.

Xatırladaq ki, D.İşxanyanın vəkili oktyabrın 24-də keçirilən məhkəmə iclasında həmin videonun tədqiqi üçün vəsatətlə çıxış etmişdi.

"YouTube" sosial şəbəkəsində 2020-ci il avqustun 28-də yerləşdirilmiş video nümayiş olunub. Videomaterialda Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən Sərdarabadda Ermənistan hərbçiləri təltif edilir. Arayik Harutyunyanın da iştirak etdiyi tədbirdə çıxış edən Nikol Paşinyan bildirib ki, təltif olunanların hamısı iyul döyüşlərinin fəal iştirakçılarıdır.

Dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs Arayik Harutyunyana suallar ünvanlayıb. Əvvəlcə qeyd edilib ki, videoda iyul döyüşlərində iştirak edən Ermənistan hərbçiləri təltif olunur. "Həmin tədbirə hansı məqsədlə və hansı statusla dəvət olunmuşdunuz?

2020-ci il iyunun 19-da Ermənistan Respublikası və qondarma qurumun birgə Təhlükəsizlik Şurasının iclası keçirilib. Orada iştirakınızın məqsədi nə idi? Siz məhkəmə istintaqı zamanı bildirmisiniz ki, iyul döyüşlərinin qondarma rejimlə heç bir əlaqəsi olmayıb. Bu iclas hansı zərurətdən yaranmışdı və hansı məsələlər müzakirə edilib?", - deyə dövlət ittihamçısı sual verib.

Təqsirləndirilən şəxs cavabında bildirib ki, qondarma qurumun "nümayəndələri" Ermənistan Respublikasında keçirilən bu cür tədbirlərə daim dəvət olunurdu. İclasda isə Ermənistan Respublikasının təhlükəsizlik məsələləri, ordunun hazırlıq vəziyyəti və ehtimal olunan müharibə ssenariləri müzakirə edilib.

Növbəti tədqiq edilən sənəd təqsirləndirilən şəxs L.Mnatsakanyanın Şuşada Cıdır düzündə erməni jurnalistə verdiyi müsahibə olub. O, məhkəmədə bildirib ki, müsahibədə "Yaşma briqadası"nın (Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri nəzərdə tutulur - red.) 400 hərbçisinin həlak olması ilə bağlı rəqəm səsləndirməyib. Videoya təkrar baxış zamanı müəyyən edilib ki, L.Mnatsakanyan jurnalistin sualına cavabında deyir: "Yaşma briqadası"nın 400-ə yaxın itkisi var".



Məhkəmə iclasında müsahibənin həmin hissəsini təkrarən izlədikdən sonra L.Mnatsakanyan belə fikir demədiyini iddia edib.

Sonra təqsirləndirilən şəxs Bako Sahakyanın müdafiəçisi Nigar Mirbabayevanın məhkəməyə təqdim etdiyi material nümayiş etdirilib.

Bu, 2020-ci il dekabrın 1-də Arkadi Qukasyan və Bako Sahakyanın Vətən müharibəsi zamanı fəaliyyətləri ilə bağlı internetdə dərc olunan məqalə olub. Material tərəflərin iştirakı ilə tədqiq edilib.

Bundan sonra iclasa sədrlik edən Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının Baş Prokurorluğun İstintaq İdarəsinə göndərdiyi məktubu elan edib.

Məktubda göstərilir ki, komissiyada toplanmış məlumatlara əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsi zamanı əsir və girov götürülmüş 54 Azərbaycan vətəndaşına Ermənistan və onun işğal etdiyi ərazilərdə yerləşən saxlanma yerlərində 1992-1996-cı illərdə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən baş çəkilib.

Sonradan həmin 54 nəfərdən 17-sinin meyiti qaytarılsa da, 37 nəfər Ermənistan hərbçiləri tərəfindən zorakı şəkildə yoxa çıxarılıb. 37 nəfərdən 4-nün sonrakı taleyi barədə ümumiyyətlə məlumat verilməyib. 33 nəfərin isə saxlanma yerində öldüyü bildirilsə də, meyitləri qaytarılmayıb.

Qeydlərlə bağlı tərtib edilmiş məlumat da məhkəmədə elan olunub. Həmin məlumatda 1994-cü il yanvarın 29-da 8 nəfər azərbaycanlı əsir və girovun öldürüldüyü qeyd olunur.

Bundan sonra Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli beynəlxalq təşkilatın hesabatının bir hissəsinin tədqiq olunmasını xahiş edib. Tədqiq edilən sənəddə göstərilib ki, 1994-cü ildə Ermənistanda - İrəvanda ölən 8 əsir-girovla bağlı hadisə xüsusilə dəhşətli olub. Məqalənin yazıldığı zaman onların ölüm səbəbi müəmmalı qalıb.

Tuqay Rəhimli çıxış edərək bildirib ki, təqsirləndirilən şəxs Bako Sahakyan istintaq materiallarında vaxtilə əsir-girovlarla əlaqədar məsələlərlə məşğul olduğunu vurğulayıb. T.Rəhimli "1994-cü il yanvarın 29-da 8 nəfər əsir-girov öldürülüb. Sizin bununla bağlı hansısa məlumatınız varmı?", - deyə təqsirləndirilən şəxsə sual ünvanlayıb. Həmçinin əlavə edib ki, əsir-girovlar eyni gündə, eyni yerdə öldürülüb. Bu, təsadüfi ola bilməz.

B.Sahakyan bildirib ki, hesabatda göstərilmiş hadisə ilə bağlı məlumatı yoxdur.

Sonra məhkəmə iclasında zərərçəkmiş şəxslərin və zərərçəkmiş şəxslərin hüquqi varislərinin ifadələri elan olunub.

Zərərçəkmiş Şükürov Mahmud Sabir oğlunun ifadəsində bildirilib ki, 2022-ci il sentyabrın 13-də Zəngilan rayonunun ərazisində düşmən tərəfindən atılan əl qumbarasının partlaması nəticəsində Fərid Rüstəmov həlak olub, eləcə də o, Fərid Məmmədov, Saleh Həsənov, Təbriz Ramazanov bədən xəsarətləri alıblar.

Zərərçəkmiş Ələkbərli Kənan Müşfiq oğlunun hüquqi varisi Ələkbərova Fəxriyyə Xəlil qızı ifadəsində qeyd edib ki, 2020-ci il oktyabrın 10-da övladının Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində şəhid olduğu xəbərini eşidib.

Bəbirli Asif Oktay oğlunun ifadəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 28-də Göygöl rayonu ərazisinə açdıqları atəş nəticəsində o, Elvin Səlimov, Kamran Hüseynov, Rəşad Novruzov, Mustafa Məmmədov, Rəşad Abdullayev yaralanıb, Orxan Daşdəmirov isə həlak olub.

Zərərçəkmiş Məmmədov Mail Məhəmmədəli oğlu ifadəsində göstərib ki, 1992-ci il oktyabrın 21-də Ağdərə rayonunun Sırxavənd kəndində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb. Əvvəlcə Hadrut qəsəbəsinə, sonra "URAL" markalı hərbi avtomobildə işgəncə verilə-verilə Xankəndi şəhərinə aparılıb. Orada saxlanıldığı xüsusi rejimli təcridxanada müxtəlif işgəncələrə məruz qalıb. Daha sonra başqa binanın zirzəmisində saxlanılıb. Xankəndi şəhərində əsirlikdə olduğu 3 ay müddətində polkovnik Basensi Azoyan, polkovnik-leytenant Artur Simonyan və Sergey Abramyan adlı erməni zabitləri onu dindirib, saxlanıldığı kameralarda dəfələrlə işgəncələrə məruz qalıb.

Zərərçəkmiş, 1957-ci il təvəllüdlü Xocalı şəhər sakini Əliyeva Məlahət Əhməd qızının elan olunan ifadəsinə əsasən, 1992-ci il fevralın 25-də Ermənistan hərbçiləri Xocalı şəhərini mühasirəyə alıb əhalini güllələyib, şəhərə od vurublar. O və əri Tapdıq Çobanov, 1979-cu il təvəllüdlü oğlu Teymur, 1980-ci il təvəllüdlü oğlu Seymur və 1984-cü il təvəllüdlü qızı Nəzakəti də götürüb camaatla birlikdə şəhəri tərk ediblər. "Qarlı yolda qadın və uşaqların qışqırıq-ağlaşma səsindən qulaqlar tutulurdu", - deyə o, ifadəsində qeyd edib.

Ermənistan hərbçiləri Ağdama gedən yolda insanları atəşə tutub, xeyli mülki şəxs öldürülüb. Açılan atəşdən Tapdıq qarnını tutub yerə yıxılıb, Nəzakət də onun qucağında güllə yarası alıb ölüb. Özü isə ayağından yaralansa da, oğullarının əlindən tutub hərəkətə davam edib. Ətraf çoxlu qadın, uşaq, qoca insanların meyitləri ilə dolu olub. Onun digər doğmaları da qətlə yetirilib.

Zərərçəkmiş Qarayev Cəbrayıl Xasay oğlu ifadəsində qeyd edib ki, 1993-cü il iyulun 20-də yaşadığı Ağdam rayonunun Qiyaslı kəndinə hücum zamanı Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən girov götürülüb. O, Ağdamın Yetim Cinli kəndində, sonra Xankəndi şəhərində yerləşən hərbi hissədə, daha sonra Şuşa həbsxanasında saxlanılıb. Girov saxlanıldığı müddətdə mütəmadi döyülüb, uzun müddət soyuq beton döşəmənin üstündə ac-susuz qalıb, işgəncələrə, pis rəftara məruz qalıb.

Zərərçəkmiş Məmmədov Vahid Abasqulu oğlu ifadəsində göstərib ki, o, Ermənistanın Mehri rayonunda dəmir yolunda fəhlə işləyib. 1991-ci il dekabrın 6-da briqadir Qardaşov Etibar Fərman oğlu, operator Cavadov Fazil Ağa oğlu, operator köməkçisi Nəbiyev Cavad Qurban oğlu, fəhlələr Rəhimov Valeh Mirsadiq oğlu, Heydərov Tofiq Sadiq oğlu, Yusifzadə Bədəl Haşım oğlu, Qubadov Etibar Ənvər oğlu və Məmmədov Məmmədhüseyn Cəfərqulu oğlu ilə birlikdə Mehri çayı adlanan ərazidə nahar etmək istəyərkən əllərində avtomat silahlar olan Ermənistan hərbçiləri tərəfindən girov götürülüblər. Onlar Qacaran şəhərində dəmir barmaqlıqlı bir otağa salınıb, orada qarət ediliblər. Bədəl Yusifzadə və Etibar Qardaşovla birlikdə adını bilmədiyi dağ kəndində, sonra Qafan rayonunda saxlanılıblar. Girovluqda qaldığı müddətdə işgəncələrə, qeyri-insani və pis rəftara məruz qalıb.

Məhkəmə iclası digər ifadələrin oxunması ilə davam etdirilib.

Məhkəmə prosesi oktyabrın 31-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

41_27 IYUl-QARA.qxd 10/30/2025 8:23 PM Page 5



# İlham Əliyev Ermənistanda keçiriləcək sammitdə iştirak etməyəcək



***Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanda 2026-cı ilin may ayında keçiriləcək Avropa Siyasi Birliyi (ASB) sammitində iştirak etmək niyyətində deyil.***

"Unikal"ın məlumatına görə, bu barədə "Caliber.Az" mənbələrə istinadən yazıb. "İkitərəfli münasibətlərin hazırkı səviyyəsi Prezident Əliyevin İrəvana səfərini aktual addım kimi nəzərdən keçirməyə hələlik imkan vermir. Azərbaycan real fəaliyyət prinsipindən çıxış edir. Saziş (sülh sazişi - red.) imzalanmadan və praktiki mexanizmlər işə salınmadan yüksək səviyyəli səfər prosesin tamamlanması ilə bağlı yanlış təəssürat yarada bilərdi. Hüquqi baza rəsmiləşdirilmədən və öhdəliklərin yerinə yetirilməsinə başlanılmadan bu cür addımların atılması hələ tezdir", - "Caliber.Az" qeyd edib.

Eyni zamanda, qeyd olunub ki, gələcəkdə yüksək səviyyədə səfərlərin həyata keçirilməsi perspektivi istisna edilmir.

"Əksinə, sülh sazişinin imzalanmasından və icrasına başlanılmasından sonra bu, prosesin məntiqi davamı olacaq. İndi isə daha əvvəl razılaşdırılmış öhdəliklərin yerinə yetirilməsi üçün praktiki addımlar atılmalıdır ki, bu da sülhü təkcə de-fakto deyil, həm də de-yure möhkəmləndirəcək", - "Caliber.Az" vurğulayıb.

Qeyd edək ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan oktyabrın 27-də bildirib ki, hökumət Azərbaycan Prezidenti İlham Əliyevi Avropa Siyasi Birliyinin 2026-cı ilin may ayında İrəvanda keçirilməsi planlaşdırılan sammitinə dəvət edib. O dəqiqləşdirib ki, "hazırda müvafiq dəvətin sənədləşdirilməsi üzərində iş gedir".

# Prezident Balakənin icra başçısını vəzifədən azad etdi

***İslam Vahid oğlu Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Qeyd edək ki, Balakən Rayon İcra Hakimiyyətində Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat nəticəsində rayonun icra başçısı İslam Rzayev saxlanılıb. O, korrupsiya cinayətlərində şübhəli bilinir.



# Ceyhun Bayramov Özbəkistan Prezidenti ilə görüşüb

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səmərqənd şəhərində keçirilən UNESCO-nun Baş Konfransının 43-cü sessiyası çərçivəsində Özbəkistan Prezidenti Şafkat Mirziyoyev ilə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN məlumat yayıb.

Bildirilib ki, C.Bayramov Özbəkistanı bu nüfuzlu qlobal tədbirin uğurla keçirilməsi və mükəmməl təşkilinə görə səmimi şəkildə təbrik edib.

# Nazirlik: "Qiyabi təhsil ləğv edilmir"

***Hazırda qiyabi təhsil formasının ümumilikdə ləğv edilməsi ilə bağlı qərar mövcud deyil.***

"Unikal" xəbər verir ki, bu barədə APA-nın sorğusuna cavab olaraq Elm və Təhsil Nazirliyindən bildirilib. Qeyd olunub ki, son illərdə tədris keyfiyyətinin yüksəldilməsi, praktik bacarıqların artırılması və əmək bazarının tələblərinin nəzərə alınması məqsədilə bəzi ixtisaslar (tibb, pedaqogika, mühəndislik, informasiya texnologiyaları və digər bu kimi ixtisaslar) üzrə qiyabi təhsil forması mərhələli şəkildə dayandırılıb.



# Ramiz Mehdiyevə verilən bütün fəxri adlar və ordenlər silindi

***Cinayət məsuliyyətinə cəlb edilən Prezident Administrasiyanın (PA) sabiq rəhbəri Ramiz Mehdiyevin bütün fəxri adlar, ordenlər silinib.***



"Unikal" xəbər verir ki, R.Mehdiyevlə bağlı rəsmi portalda axtarış zamanı orden və medallarla bağlı heç bir məlumat tapılmır.

Qeyd edək ki, Səbail Rayon Məhkəməsinin qərarı ilə PA-nın sabiq rəhbəri barəsində 4 aylıq ev dustaqlığı qətimkan tədbiri seçilib.

# Sahibə Qafarova Qobaşla müzakirə apardı

***Bu gün Milli Məclisin sədri Sahibə Qafarova və ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının sədri Saqr Qobaş arasında görüş keçirilib.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib.



Milli Məclisin sədri Birləşmiş Ərəb Əmirliklərinin oktyabrın 29-da Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında yüksək səviyyədə təmsil olunmasına və Saqr Qobaşın məzmunlu çıxışına görə təşəkkür edib.

Parlamentin spikeri BƏƏ Federal Milli Şurasının sədrinin ölkəmizə ilk rəsmi səfərini yüksək qiymətləndirərək, bu səfərin iki ölkə arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi, əməkdaşlıq imkanlarının genişlənməsi və parlamentlərarası münasibətlərin dərinləşməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib. Sahibə Qafarova cari ilin may ayında Birləşmiş Ərəb Əmirliklərinə etdiyi rəsmi səfəri məmnunluqla xatırlayaraq, səfər zamanı keçirilən görüşlərin, aparılan danışıqların və parlamentlər arasında imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğulayıb.

Azərbaycana ilk rəsmi səfərindən və Beynəlxalq Parlament Konfransında iştirakından məmnunluğunu bildirən BƏƏ Federal Milli Şurasının sədri Saqr Qobaş ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini vurğulayıb. Qonaq səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb. O, ölkə rəhbərləri arasında qarşılıqlı hörmət, etimad və səmimi dostluq prinsiplərinə əsaslanan münasibətlərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə xidmət etdiyini bildirib. Qonaq yüksək səviyyəli siyasi-iqtisadi əlaqələri müsbət qiymətləndirib, həmçinin mədəni-humanitar sahələrdə də əməkdaşlığın dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Qanunverici orqanlar arasında imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumuna əsaslanaraq əlaqələrin daha da inkişaf etdirilməsi məsələləri nəzərdən keçirilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə XTQ təlimi başa çatdı



***Ölkəmizdə Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri (XTQ) və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezident Qvardiyasının Xüsusi Əməliyyat Komandanlığı bölmələrinin iştirakı ilə keçirilən "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə xüsusi təyinatlı qüvvələr təlimi oktyabrın 30-da sona çatıb.***

"Unikal" xəbər verir ki, təlimin bağlanış mərasimində əvvəlcə hər iki ölkənin şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan və BƏƏ-nin Dövlət himnləri səsləndirilib, Dövlət bayraqları qaldırılıb.

Mərasimdə çıxış edənlər Azərbaycan və BƏƏ-nin xüsusi təyinatlıları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini, keçirilən birgə təlimin ölkələrin XTQ mənsubları arasında təcrübə mübadiləsi, döyüş hazırlığı səviyyəsinin artırılması və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Təlimdə fərqlənən hərbi qulluqçular mükafatlandırılıb, hədiyyə mübadiləsi həyata keçirilib.

Mərasimin sonunda xatirə fotosu çəkdirilib.

# "Moskva və Bakı onların azad edilməsi üçün dialoq aparır" - Zaxarova

***Moskva və Bakı saxlanılan Rusiya vətəndaşlarının tezliklə azad edilməsi ilə bağlı əsaslı dialoq aparır.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinqdə bildirib.

Diplomat vurğulayıb ki, "İki ölkənin müvafiq nazirlikləri Rusiya vətəndaşlarının vətənlərinə tezliklə qayıtmasını təmin etmək üçün əsaslı dialoq aparır".

# Baş nazir dövlət ehtiyacları ilə bağlı qərar imzaladı

## Qazax və Qusarda dövlət ehtiyacları üçün torpaq alınacaq

***Nazirlər Kabineti Qazax və Qusar rayonlarında torpağın dövlət ehtiyacları üçün alınması haqqında qərar qəbul edib.***

"Unikal" xəbər verir ki, qərarı Baş nazir Əli Əsədov imzalayıb.



Qərara əsasən, dövlət sərhədindən buraxılış məntəqələrinin genişləndirilməsi, o cümlədən sərhəd və gömrük nəzarətinin daha səmərəli təşkili məqsədilə Qazax rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 0,49 hektar və Qazax rayonu Şıxlı Bələdiyyəsinin mülkiyyətində 5,53 hektar, Qusar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində

8,27 hektar və Qusar rayonu Samur Bələdiyyəsinin mülkiyyətində 2,752 hektar olmaqla, ümumilikdə dövlət mülkiyyətində olan 8,76 hektar torpaq sahəsi üzərində istifadə hüququ və bələdiyyə mülkiyyətində olan 8,282 hektar torpaq sahəsi dövlət ehtiyacları üçün alınacaq.

# Azərbaycan maliyyə sektorunda informasiya təhlükəsizliyini gücləndirir

***Azərbaycan Mərkəzi Bankı (AMB) Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) ilə maliyyə sektorunda informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair əməkdaşlığı gücləndirir.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, əməkdaşlıq çərçivəsində tərəflər sektor üzrə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik istiqamətində koordinasiyalı fəaliyyətin təmin olunması, müvafiq tədbirlərin təşkil edilməsi, həmçinin insidentlər, kiberhücumlar və digər təhdidlər barədə qarşılıqlı məlumatlandırmanın həyata keçirilməsi istiqamətində birgə çalışacaqlar.

AMB-nin sədr müavini Vüsal Xəlilov əməkdaşlığın maliyyə sistemində kibertəhlükəsizliyin və dayanıqlılığın artırılmasına töhfə verəcəyini bildirib. O, həmçinin bu təşəbbüsün milli kibermühitin təhlükəsizliyinin gücləndirilməsi yolunda daha sıx əməkdaşlığa doğru mühüm addım olduğunu vurğulayıb.

ETX-nin rəisi Fərid Zeynalov bildirib ki, tərəfdaşlıq nəinki maliyyə sektorunda, ümumilikdə ölkənin kibertəhlükəsizlik infrastrukturunun möhkəmləndirilməsində mühüm rol oynayacaq. O bildirib ki, tərəflər arasında koordinasiyanın artırılması kibertəhlükəsizlik tədbirlərinin daha sis-



temli şəkildə icrasına imkan verəcək.

Əməkdaşlıq çərçivəsində həmçinin maliyyə sektoru iştirakçıları və geniş ictimaiyyət arasında kibertəhlükəsizlik biliklərinin artırılması məqsədilə maarifləndirici təşəbbüslərin həyata keçirilməsi nəzərdə tutulur.

# Sofiyada Azərbaycan-Bolqarıstan Hökumətlərarası Komissiyasının iclası keçiriləcək

***Azərbaycan və Bolqarıstan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının 7-ci iclasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə ediləcək.***

"Report"un Bolqarıstan KİV-lərinə istinadən məlumatına görə, komissiyanın iclası oktyabrın 31-də Sofiyada keçiriləcək.

Komissiyanın həmsədrləri Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Bolqarıstanın energetika naziri Jeço Stankovdur.

Komissiyanın iki ölkə arasında qarşılıqlı maraq doğuran sahələrdə işgüzar əlaqələrin genişləndirilməsi üzrə əlaqələndirilmiş tədbirlər müəyyən et-



məsi gözlənilir.

"Tədbir kənd təsərrüfatı, əczaçılıq, emal sənayesi, qida sənayesi üçün avadanlıq istehsalı, tekstil sənayesi və s. kimi sahələrin nümayəndələrinə potensial tərəfdaşlarla görüşmək, fikir mübadiləsi aparmaq və qarşılıqlı faydalı əməkdaşlıq üçün birbaşa əlaqələr qurmaq imkanı verəcək", - məlumatda bildirilib.

Tədbirin əsas məqsədi şirkətlərin iqtisadi dayanıqlığının təmin edilməsi və sərfəli sövdələşmələrin və uzunmüddətli tərəfdaşlığın həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasıdır.

Məlumatda, həmçinin qeyd olunub ki, Bolqarıstan Azərbaycandan əlavə həcmdə təbii qaz tədarükündə maraqlıdır və Cənub Qaz Dəhlizinin gələcək genişləndirilməsinə dəstək ifadə edir.

Bu gün Hökumətlərarası Komissiya çərçivəsində ikitərəfli ticari-iqtisadi əlaqələrin gücləndirilməsi və inkişafına yönəlmiş B2B formatında görüşlərlə Bolqarıstan-Azərbaycan biznes forumu keçiriləcək.

# "Yüksəkixtisaslı miqrant" portalının əsasnaməsi təsdiqlənib

***"Yüksəkixtisaslı miqrant" portalının əsasnaməsi təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərarla həmçinin portala inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısı da təsdiq edilib.

Ümumilikdə qərar portalın fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir. "Yüksəkixtisaslı miqrant" portalı müasir tələblərə cavab verən yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə onların Yüksəkixtisaslı Miqrant Proqramı çərçivəsində müraciətlərinin elektron qaydada qəbulunu və cavablandırılmasını, eyni zamanda Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş hüquqi və fiziki şəxslərin, habelə xarici hüquqi şəxsin nümayəndəliyinin və ya filialının soröusu əsasında onların yüksəkixtisaslı miqrantlarla əlaqələndirilməsini təmin edəcək.



# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirildi

***Oktyabrın 30-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Respublika Qan Bankının birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilib.***

"Unikal" xəbər verir ki, Respublika Qan Bankının Mobil şəraitdə qan tədarükü şöbəsinin müdiri Günel Mehdiyeva bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan və digər profilli xəstəliklərdən əziyyət çəkən insanlara dəstək verməkdir: "Respublika Qan Bankının əməkdaşları tərəfindən lazımi müayinələr aparılır, yararlı donorlardan qan götürülür. Toplanan qan Respublika Qan Bankının laboratoriya şöbəsində müayinədən keçirildikdən sonra xəstələr üçün istifadə olunacaq".

"Qanvermə həm məsuliyyətli, həm də xeyirxah missiyadır. Qana həmişə ehtiyac var, çünki onu heç bir dərman vasitəsi əvəz edə bilməz. İnsanlar ildə bir neçə dəfə qan verə bilərlər. Ümid edirik ki, belə aksiyalar bundan sonra da davam edəcək", - deyə Respublika Qan Bankının şöbə müdiri əlavə edib.

Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası qanvermə aksiyalarına hər zaman dəstək olur: "Budəfəki təşəbbüsünə görə də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk".

Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 400-ə yaxın YAP üzvü iştirak edib.

# Azadlıq Meydanındakı yeraltı dayanacaq 1 həftə bağlı olacaq

***8 Noyabr - Zəfər Günü paytaxtda təşkil ediləcək paradla əlaqədar Azadlıq Meydanındakı yeraltı avtodayanacağın fəaliyyəti müvəqqəti dayandırılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb.

Bildirilib ki, noyabrın 3-dən 9-dək Zəfər paradına hazırlıq müddətində və bayram günündə yeraltı dayanacaq fəaliyyət göstərməyəcək.

# Xəlil Şirqulami İrəvana səfir göndərildi

***İran Ermənistan və Gürcüstana yeni səfirləri təyin edib.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

İranın xarici işlər naziri Abbas Əraqçinin sözlərinə görə, Xəlil Şirqulami İranın Ermənistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib, Əli Mocani isə İranın Gürcüstandakı yeni səfiri olacaq.

***Ağarza Elçinoğlu***

41_27 IYUl-QARA.qxd 10/30/2025 9:38 PM Page 7



## Hikmət Hacıyev TİKA sədri ilə görüşdü



***Türkiyə İqtisadi İnkişaf Agentliyinin (TİKA) sədri Abdullah Eren Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə TİKA sədri paylaşım edib.

Onun sözlərinə görə, görüşdə qurumun Azərbaycandakı fəaliyyəti ilə bağlı hərtərəfli məsləhətləşmələr aparıldı:

"Qardaşlığımızın ən gözəl təzahürlərindən biri olan bu səylər, ortaq tariximizin, mədəniyyətimizin və ruh birliyimizin təbii əksidir. Qarşıdakı dövrdə də layihələrimizi eyni qətiyyət və sevgi ilə davam etdirməyə davam edəcəyik və əlaqələrimizi daha da möhkəmləndirəcəyik".

## Ərdoğan Azərbaycana və bir sıra ölkələrə təşəkkür etdi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Cümhuriyyətinin qurulmasının 102-ci ildönümü münasibətilə təbriklərinə görə Azərbaycan da daxil olmaqla, bir sıra dost və qardaş ölkələrə təşəkkürünü bildirib.***

"Unikal" xəbər verir ki, Türkiyə lideri müvafiq mesajı "X" sosial şəbəkəsində paylaşıb.

Ərdoğan orada təbriklərini göndərən ölkələrin və beynəlxalq təşkilatların bayraqlarını da yerləşdirib.

## Mikayıl Cabbarov Dünya Bankının nümayəndə heyəti ilə görüşüb



***İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Avropa və Mərkəzi Asiya regionunda rifah üzrə regional direktoru Əsəd Ələmin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat Naziri Mikayıl Cabbarov "X" sosial şəbəkə hesabında məlumat verib.

"Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" layihəsinə daxil edilməsi planlaşdırılan istiqamətlər, biznes mühitinin təkmilləşdirilməsi, dayanıqlı və inklüziv iqtisadi artımın və məşğulluğun təşviqi barədə fikirlərimizi bölüşdük.

Beynəlxalq təcrübədə biznesin intensiv inkişafı üzrə aparılmış təhlillərin nəticələrinin və özəl sektorun stimullaşdırılması ilə bağlı tədqiqat metodologiyalarının Azərbaycanda tətbiqi imkanlarını nəzərdən keçirdik"-deyə paylaşımda qeyd edilib.

## Saxlanılan icra başçısının qızı hakimdir

***Xəbər verdiyimiz kimi, Dövlət Təhlükəsizliyi Xidmətinin Balakən Rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyat çərçivəsində rayonun icra başçısı İslam Rzayevin və bir neçə digər rəsmi şəxsin saxlanıldığı bildirilir.***

"Unikal"ın məlumatına görə, saxlanılan icra başçısının qızı Fəridə Rzayeva Suraxanı Rayon Məhkəməsinin hakimidir.

O 2023-cü ildə hakim təyin edilib, daha əvvəl isə vəkillik fəaliyyəti ilə məşğul olub.

***Anar Kəlbiyev***

# "Hazırkı Azərbaycan qanunvericiliyi kifayət qədər sərtdir"

### Ceyhun Məmmədov: "Bu məsələdə məsuliyyət yalnız dövlətin üzərinə düşmür, hər kəs bu prosesə töhfə verməyə çalışmalıdır"

***Milli Məclisin deputatı Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, erkən nikah səbəbindən 17 yaşlı qızın həyatını itirməsindən, bu cür nikahların qarşısının alınması üçün cəzaların hansı formada sərtləşdirilməsindən, restoran sahibləri belə halların qarşısının alınması üçün cütlüklərdən hansı sənədləri tələb edə biləcəyindən və demoqrafik problemlər yaradacağından danışıb.***



- Ceyhun müəllim, Astarada 17 yaşlı qızın faciəli şəkildə ölümü yenidən erkən nikahlar məsələsini gündəmə gətirib. Son illər erkən nikah ölkədə ən çox müzakirə olunan məsələlərdəndir. Belə halların qarşısını almaq üçün hansı sərt tədbirlər tətbiq olunmalıdır?

-Təəssüflər olsun ki, atılan bütün addımlara baxmayaraq, hələ də cəmiyyətimizdə erkən nikahların baş verdiyinin şahidiyik. Hesab edirəm ki, hazırkı Azərbaycan qanunvericiliyi kifayət qədər sərtdir. Başlanğıc olaraq çox önəmli qərarları, qanunları qəbul etmişik və addımları atmışıq. Ola bilər ki, növbəti mərhələdə bu qanun daha da sərtləşdirilsin. Məlumatıma əsasən, qardaş Qazaxıstanda artıq bununla bağlı cəzanın 10 ilədək artırılması baş verib. Qanunların sərtləşdirilməsi ilə yanaşı ciddi maarifləndirmə və təbliğat işləri də aparılmalıdır. Bu məsələdə məsuliyyət yalnız dövlətin üzərinə düşmür. Hər kəs bu prosesə töhfə verməyə çalışmalıdır.

-Azərbaycan Respublikasında erkən nikahların qarşısının alınması ilə bağlı bir sıra hüquqi və inzibati xarakterli addımların atılmasına baxmayaraq, problemlər hələ də tam həllini tapmayıb. Bu qızın həyatını itirməsinə görə, o cümlədən belə hallarda kimlər məsuliyyət daşıyır?

-Belə hallara yol verən vətəndaşlar, eləcə də bütövlükdə cəmiyyət məsuliyyət daşıyır. Həmçinin, aidiyyəti strukturların, qurumların prosesə nəzarəti gücləndirməsinə və bu istiqamətdə sərt addımlar atmasına böyük ehtiyac var. Burada cəmiyyətin də üzərinə böyük vəzifə düşür. Təbii ki, icra orqanları da bu məsələyə görə böyük məsuliyyət daşıyır. Biz həm cəmiyyət, həm də dövlət olaraq gücümüzü səfərbər edərək bu məsələlərin həllinə çalışmalıyıq. Eyni zamanda qanunu pozanlar ən sərt şəkildə cəzalandırılmalıdırlar.

-Cütlüklərin yaşını müəyyən etmək üçün restoranlar hansı addımlar atmalıdır?

-Restoranlar pula görə hər şeyə getməli deyillər. Onlar da qanunun tələbinə ciddi şəkildə əməl etməlidirlər. Dəyişikliklərdə bu prosesdə iştirak edən şəxslər və qurumlar barədə də ciddi cəzalar nəzərdə tutulub. İctimai iaşə obyektləri bilməlidirlər ki, qanunu pozduqları halda ciddi cəzalandırılacaqlar. Onlar da qanunun aliliyini qorumalıdırlar. Bu sadə məsələ deyil. Burada söhbət həm də bir millətin genofondundan, gələcək nəslin qorunmasından və sağlam böyüməsindən gedir.Təbii ki, çıxış yolu kimi nikah şəhadətnaməsini və digər sənədləri tələb edə bilərlər.

-Erkən nikah ictimai problem olmaqla yanaşı, demoqrafik problem kimi də dəyərləndirilməlidir. Belə hallar gələcəkdə hansı fəsadların yaranmasına səbəb ola bilər?

-Bu, böyük ictimai və demoqrafik problemdir. Bu cür məsələlər genefondumuzu zədələyir. Yəni, 17 yaşlı qızımızın bu formada həyatını itirməsi çox faciəvi haldır və üzücü hadisədir. Biz gələcəkdə bu halların baş verməməsi üçün çox çalışmalıyıq. Bu istiqamətdə davamlı olaraq addımlar atılmalıdır. Bu xanım gələcəkdə ana olaraq övladlarını böyüdə bilərdi. Amma təəssüf ki, bir Azərbaycan xanımı faciəvi şəkildə həyatını itirmiş oldu. Bir ailənin gələcəyi məhv oldu.

***Anar Kəlbiyev***

# Bu il Azərbaycanda amnistiya olacaq? - Açıqlama

***"Hələki amnistiya ilə bağlı hansısa addım nəzərdə tutulmayıb. Mümkündür ki, olsun. Biz də çox arzulayırıq. Nə qədər əfv və amnistiya addımları olursa, müəyyən həbs yerlərində cəzaçəkən insanlardan daha çox onların yaxınları sevinirlər".***



Bunu "Unikal"a açıqlamasında Əfv Məsələləri Komissiyasının üzvü, deputat Fazil Mustafa "Konstitusiya və Suverenlik ili" çərçivəsində amnistiyanın ola biləcəyi ilə bağlı səsləndirilən fikirlərə münasibət bildirərkən deyib.

Komissiya üzvü bildirib ki, insanlara sevinc bəxş etmək hamının arzusudur: "Amma müəyyən standartlar var və onlar nəzərə alınmalıdır. Hər il kifayət qədər insan əfv vasitəsilə azadlığa qovuşur. Amnistiya çox önəmli hadisələr baş verəndə olur. Dövlət qurumları ciddi təhlil edir, zərurət yarananda bu addımın atılması nəzərdə tutulur. İndi nəzərdə tutulmasa da, gələcəkdə mümkündür".

Qeyd edək ki, müstəqillik dövründə Azərbaycanda ümumilikdə 12 amnistiya aktı qəbul edilib və bu aktlar 160 minə yaxın şəxsə şamil olunub.

***Anar Kəlbiyev***

# Mehdiyevin zamanında Elton Məmmədovun AMEA-da mənimsədiyi milyonlar...

## Keçmiş nazirin vaxtilə deputat olmuş qardaşı ilə bağlı şok faktlar ortaya çıxdı - Niyə istintaqa cəlb edilibmiş?

***Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) 2020-2023-cü illərdə baş verən qanun pozuntuları ilə bağlı aparılan cinayət işində maraqlı faktlar üzə çıxıb. Yola salmaq üzrə olduğumuz həftə məlum olub ki, hazırda ev dustaqlığında saxlanılan Ramiz Mehdiyevin AMEA-ya rəhbərlik etdiyi dövrdə olan yeyinti halları ilə əlaqədar sabiq deputat Elton Məmmədov da istintaqa cəlb olunubmuş.***

Baş Prokurorluğun məlumatına görə, bu qurum Elton Məmmədova rəsmi xəbərdarlıq edib. Bildirilib ki, Azərbaycan Milli Elmlər Akademiyasının İşlər idarəsinin sabiq müdiri, hazırda həmin qurumun Rəyasət Heyəti Aparatının Sosial xidmətlər şöbəsinin müdiri Məmmədov Elton Arzuman oğlunun Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq edilən cinayət işi üzrə açıqlaması yayılıb. Elton Məmmədov açıqlamasında istintaq orqanına çağırılmadığını, hər hansı qanun pozuntusuna yol vermədiyini qeyd edib və bu məzmunda mediada yayılan məlumatları yalan adlandırıb.



Vurğulanıb ki, AMEA-da baş verən qanunsuzluqlar barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla israf etmə) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə ibtidai istintaqı davam etdirilən cinayət işi üzrə 3 milyon manat büdcə vəsaitinin əsassız olaraq xərclənməsinə şübhələr müəyyən edilib. İstintaq tədbirləri nəticəsində əsassız olaraq xərclənmiş 3 milyon manat büdcə vəsaitinin Elton Məmmədov tərəfindən tam şəkildə dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Xatırladaq ki, E.Məmmədov keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşı və sabiq deputatdır. Ramiz Mehdiyev AMEA-ya prezident təyin olunduqdan sonra sadiq adamı kimi onu "Yüksək Texnologiyalar Parkı"nın direktoru vəzifəsinə gətirmişdi. Sonradan isə E.Məmmədov Akademiyanın işlər idarəsinin müdiri vəzifəsində çalışıb.

İndi isə məlum olub ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan istintaqla onun Milli Elmlər Akademiyasında işlədiyi dövr ərzində 3 milyon manata yaxın pul mənimsəyib. "Qafqazinfo" xəbər yayıb ki, maliyyə pozuntularını təsdiqləyən sənədlər və digər sübutlar iş materiallarına əlavə edilib. Keçmiş məmur müxtəlif epizodlar üzrə dəfələrlə prokurorluqda ifadə verib.

Onu da bildirək ki, bu yaxınlarda baş prokuror Kamran Əliyev jurnalistlərin mövzu ilə bağlı suallarını cavablandırıb. Baş prokuror deyib ki, AMEA-da qeydə alınmış qanun pozuntuları üzrə hərtərəfli araşdırma aparılıb. Bəzi epizodlar üzrə ibtidai istintaq tamamlanaraq məhkəməyə göndərilib, qalan epizodlar üzrə isə istintaq davam etdirilir.

Vaxtilə Ramiz Mehdiyevin ən yaxın adamlarından sayılan sabiq deputatın tərcümeyi-halında diqqət çəkən məqamlar çoxdur. Məsələn, onun adı son illər Rusiya elmi və ictimai dairələrlə sıx münasibətləri ilə də gündəmdə olub. Belə ki, Məmmədov müxtəlif illərdə bir sıra rus dövlət və ictimai təşkilatları tərəfindən mükafatlandırılıb.

Onun aldığı təltiflər arasında bunlar xüsusi diqqət çəkir:

- 2004-cü ildə "Tomsk şəhərinin fəxri sakini" adına layiq görülüb;
- 2006-cı ildə Tomsk Dövlət İnşaat Arxitektorları Universitetinin fəxri professoru seçilib;
- 2019-cu ildə həmin universitetin "fəxri məzunu" adını alıb;
- MDB Parlamentlərarası Assambleyasının "Sodrujestvo" (Əməkdaşlıq) ordeni ilə təltif olunub;
- Baltik Assambleyasının medalı və Çelyabinsk Traktor Zavodunun "Əməkdə fərqlənməyə görə" qızıl döş nişanı ilə təltif edilib.

Həmin mükafatların əksəriyyəti Rusiya və MDB strukturları tərəfindən təqdim edilib və bu fakt onun Moskva elmi-siyasi dairələri ilə sabit əlaqələrini təsdiqləyir.

Digər tərəfdən, iddialara görə, R.Mehdiyev hələ Prezident Administrasiyasına (PA) rəhbərlik etdiyi dövrdə E.Məmmədova böyük bir məbləğ müqabilində Azərbaycanın iri şəhərlərindən birinə icra başçılığı boyun olub. Lakin həmin vədi yerinə yetirə bilməyib. AMEA-ya prezident seçildikdən sonra isə keçmiş deputatın könlünü almaq üçün onu öz yanına gətirib. Aradan bir müddət keçib və Mehdiyevlə Məmmədov arasında maraq toqquşması yaranıb. İddia edilir ki, Akademiyada "boz kardinalın" "qara kassa"sına çevrilən sabiq deputat vaxtilə Mehdiyevə icra başçısı olmaqdan ötrü rüşvət kimi verdiyi pulları "çıxarmaq" üçün qısa vaxtda ondan xəbərsiz xeyli vəsaiti cibinə qoyub.

"Görünür, Mehdiyev PA rəhbəri vəzifəsində olduğu son aylarda artıq icra başçısı təyin etdirməyə çatacaq gücə, nüfuza malik olmayıb. Bu səbəbdən, Mehdiyev Məmmədovu "sakitləşdirmək" üçün onu əvvəlcə prorektor göndərilməsinə nail olub. Təbii ki, bu vəzifə E.Məmmədovun "çapına" uyğun olmadığından ya "ziyanın ödənməsi" və "sövdələşmə"nin ləğv olunması, ya da daha "yağlı" vəzifəyə təyinat məsələsi qaldırılıb. Bundan sonra Mehdiyev AMEA-ya qədəm qoyar-qoymaz "kompensasiya" qismində Məmmədovu AMEA Yüksək Texnologiyalar Parkına direktor təyin edib. Lakin bu vəzifə də E.Məmmədovun gözləntilərinə uyğun olmayıb. Bu səbəbdən əlacsız qalan Mehdiyev E.Məmmədovu daha yüksək və "yağlı" vəzifəyə - AMEA-nın İşlər idarəsinin müdiri vəzifəsinə təyin edib. Artıq bu vəzifədə Məmmədovun "mayanı diriltməyə" çalışdığı bildirilir. İddia olunur ki, həmin vaxt alimlər üçün nəzərdə tutulan Saray qəsəbəsindəki yaşayış kompleksində əvvəlcə kvadrat metri 370 manat olan mənzillərin qiyməti 750 manata qaldırılıb. Özü də mənzillər alimlərə deyil, tamamilə kənar adamlara təklif olunmağa başlayıb. Bu da AMEA-da böyük səs-küyə səbəb olub. Qeyd olunur ki, bu və digər qalmaqallardan sonra Mehdiyev Məmmədovla vidalaşmaq qərarına gəlib. Vəzifəsindən atılan Məmmədov isə bununla barışmayaraq, Mehdiyevi məhkəməyə verib" - bir müddət əvvəl "Azpolitika" yazmışdı.

Ümumiyyətlə, Məmmədovlarla Mehdiyevin dərin əlaqələrinin kökü illər öncəyə gedib çıxır. Hətta Ziya Məmmədovun nəqliyyat naziri olarkən Göyçayda, mənzərəli bir yerdə dəbdəbəli villa tikdirərək Ramiz Mehdiyevə hədiyyə etdiyi məlumdur.

Bu gün baş verən əlaqələr isə onlar arasındakı bağların daha çox korrupsiya mahiyyəti daşıdığını bütün çılpaqlığı ilə ortaya qoyur.

***Sənan Mirzə***



# Bu rayonların icra başçısı vəzifəsi boşdur

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin imzaladığı sərəncamla İslam Vahid oğlu Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.***

"Unikal"ın məlumatına görə, hazırda ölkəmizdə icra başçısı olmayan rayonların sayı 4-dür. Bunlar Balakən, Qax, Bakı şəhərinin Nəsimi və Naxçıvan Muxtar Respublikasının Culfa rayonlarıdır.

Balakənin eks icra başçısı İslam Rzayev korrupsiya hüquqpozmaları və vəzifə cinayətləri ilə bağlı keçirilən əməliyyat çərçivəsində saxlanılıb.

Prezident İlham Əliyevin iyunun 21-də imzaladığı sərəncamla Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev vəzifəsindən azad edilib. O, həmin posta 2010-cu ildə təyinat almışdı.

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) iyunun 20-də Qax Rayon İcra Hakimiyyətində əməliyyat keçirib və icra başçısı M.Şəkiliyevi saxlayıb. Səbail Rayon Məhkəməsi M.Şəkiliyev barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçib. O, qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur.

Bakının Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı postu da 2024-cü ildən etibarən boşdur.

2023-cü il avqustun 31-də Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev vəzifəsindən azad edilib. O, 2019-cu il aprel ayının 2-dən bu postda çalışırdı. İki ildən çoxdur Culfa rayonuna icra başçısı təyin edilməyib.

***Anar Kəlbiyev***

# Bu il DTX tərəfindən saxlanılan icra başçıları

***Xəbər verdiyimiz kimi, Dövlət Təhlükəsizliyi Xidmətinin Balakən Rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyat çərçivəsində rayonun icra başçısı İslam Rzayevin və bir neçə digər rəsmi şəxsin saxlanıldığı bildirilir.***

"Unikal"ın məlumatına görə, icra başçısının korrupsiya hüquqpozmaları və vəzifə cinayətləri ilə bağlı keçirilən əməliyyat çərçivəsində saxlanıldığı qeyd edilir.

Bundan əvvəl isə cari ilin 20 iyun tarixində Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev Dövlət Təhlükəsizlik Xidmətinin əməliyyat çərçivəsində saxlanılıb. Prezident İlham Əliyevin iyunun 21-də imzaladığı Sərəncama əsasən Musa Şaban oğlu Şəkiliyev vəzifəsindən azad edilib.

O, qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur. İyunun 21-də Səbail Rayon Məhkəməsində onun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

***Seymur Əli***



## "Adambaşına düşən sosial xərclər min dollara yaxındır" - Deputat

***"2025-ci ildə Azərbaycan dövlət büdcəsindən sosial istiqamətə 16.9 milyard manat vəsaitin ayrılması həyata keçirilir. Adambaşına düşən sosial xərclər isə min dollara yaxındır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, bu ilin avqust ayında Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında bağlanan sülh anlaşması regionun inkişafı üçün yeni imkanlar açır: "Bu həm də sosial təminat tədbirlərinin daha da genişləşdirilməsi üçün maliyyə təminatını gücləndirəcək. Aktiv sosial proqramlara gəldikdə isə, hazırda ünvanlı sosial yardımdan 83 min ailə və ya 353 min ailə üzvü faydalanır. 600 mindən çox uşaq aktiv sosial proqramlar ilə dəstəklənir. 150 mindən çox uşaq isə birbaşa sosial müavinətlərdən faydalanır. Azərbaycanın artan maliyyə imkanları insan kapitalının inkişafı üçün daha geniş imkanlar yaradır".

## Ölkəmizdən Türkiyəyə alma ixracına icazə verilmədi - Səbəb

***Nəzarət tədbirləri çərçivəsində "Fueqo" MMC-yə və fiziki şəxs Həsənov İlkin Cahan oğluna məxsus Türkiyəyə ixrac üçün nəzərdə tutulan ümumi çəkisi 163,4 ton alma məhsulu partiyalarından Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən nümunələr götürülərək müayinələrə cəlb olunub. Sınaq nəticəsində pestisid qalığının normadan artıq olduğu aşkarlanıb.***

Bu barədə "Unikal"a AQTA-dan məlumat verilib. Bildirilir ki, məhsul partiyaları Türkiyə Respublikasının idxal tələblərinə, o cümlədən ölkəmizdə qüvvədə olan pestisid qalığı normalarına cavab vermədiyi üçün ixracına icazə verilməyib, məhv və ya utilizasiya edilməsi barədə qərar qəbul olunub.

## Azərbaycan və Britaniya müdafiə sahəsi üzrə əməkdaşlıq planı imzalayıb

***Azərbaycan və Böyük Britaniya Müdafiə nazirlikləri arasında 2026-2027-ci illər üçün İkitərəfli Əməkdaşlıq Planı imzalanıb.***

Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin "X" platformasındakı səhifəsində imzalanma mərasimdən şəkillər və məlumat paylaşılıb.

"Biz müdafiə sahəsindəki sıx əməkdaşlığımızdan və Strateji Tərəfdaşlıq çərçivəsində onun rolundan qürur duyuruq. Dünən Böyük Britaniya və Azərbaycan Müdafiə nazirlikləri arasında 2026/27-ci illər üçün müdafiə üzrə İkili Əməkdaşlıq Planı imzalanıb. Ortaq prioritetlərin həyata keçirilməsi istiqamətində birgə fəaliyyətimizi davam etdirməyi səbirsizliklə gözləyirik", - paylaşımda deyilir.

Qeyd edək ki, Böyük Britaniyanın Azərbaycana qarşı silah embarqosunu tamamilə aradan qaldırmasından sonra müdafiə sahəsində iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanlar açılıb.

# İcra başçılarının həbsində Ramiz Mehdiyev izi...

## DTX tərəfindən saxlanılan İslam Rzayevi "boz kardinal"la nə və kimlər bağlayır? - Sensasiyalı iddialar

***Yola salmaq üzrə olduğumuz həftənin son iş günü Balakən Rayon İcra Hakimiyyətində (RİH) Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməliyyat keçirdiyinə dair məlumat yayılıb. Korrupsiya hüquqpozmaları və vəzifə cinayətləri ilə bağlı keçirilən əməliyyat çərçivəsində rayonun icra başçısı İslam Rzayev və müavinləri də daxil olmaqla bir neçə digər vəzifəli şəxsin saxlanıldığı bildirilib.***

Rayondakı mənbələrdən "Unikal"a daxil olan məlumata görə, İ.Rzayev Balakəndə əməlli-başlı qorxu mühiti yaradıbmış. Belə ki, o, müxtəlif vaxtlarda özü ilə bağlı şikayət və korrupsiya ittihamları səsləndirən şəxsləri ya məhkəməyə verərək tutdurmaq istəyib, ya da həbsə atdırmaqla hədələyib. Nəticədə icra başçısı və ətrafından narazı olan şəxslər, müxtəlif qanunsuzluqlarla, özbaşınalıqlarla üzləşən vətəndaşlar aidiyyatı dövlət qurumlarına, KİV-lərə giley-güzar etməkdən çəkiniblər. Bununla belə, son iki-üç ildə yerli rəhbərliyin qeyri-qanuni əməllərindən cana doyan vətəndaşlar üçün tamamilə dözülməz vəziyyət yaranıb.



Nəticədə İ.Rzayevlə bağlı rayon sakinlərinin ölkə mediasında yer alan şikayətləri intensivləşib, onun ünvanına çoxsaylı tənqidlər və iddialar səsləndirilib. Məsələn, 2023-cü ildə icra başçısının məhkəmə qərarı olmadan Balakən rayon sakinlərinin həyətyanı sahələrində tikdikləri və yay aylarında istifadə etdikləri çardaqları (naves) sökməklə hədələdiyinə dair məlumat yayılıb.

Eyni zamanda Balakən ərazisində xeyli sayda boş torpaq sahələrinin İslam Rzayev tərəfindən zəbt edildiyi barədə iddialar irəli sürülüb.

Balakən RİH çardaqlarla bağlı deyilənləri təkzib etməyə çalışsa da, maraqlıdır ki, boş torpaq sahələrinin zəbt olunması iddiasının üstündən sükutla keçmişdi.

Bir müddət əvvəl isə Bakı şəhər sakini Şəmsəddin Qurbanov məhkəməyə müraciət etmiş, Samir və Bəxtiyar adlı şəxslərdən qeyri-rəsmi formada mənzil aldığını, bunun müqabilində ilkin ödəniş olaraq həmin şəxslərə 12 min manat verdiyini bildirmişdi. Lakin çox keçməyib ki, Ş.Qurbanovdan aldığı evi tərk etməsi tələb olunub. Şikayətçi ona qarşı dələduzluq edənlərdən birinin - Bəxtiyar adlı şəxsin Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayevin kürəkəni, Samirin isə onun sürücüsü olduğunu demişdi. İcra başçısı isə iddiaların əsassız olduğunu deməklə kifayətlənmişdi.

"Unikal"ın əldə etdiyi başqa bir məlumata görə, 60 yaşlı Rzayev karyerasında qəfil yüksəliş yaşayıb. Dövlət Neft Şirkətinin Audit Departamentində rəhbər vəzifədə çalışdığı halda 2011-ci il mayın 18-də gözlənilmədən Balakən RİH başçısı təyin edilib. İddialara görə, bu təyinatda Prezident Administrasiyasının sabiq rəhbəri, bu yaxınlarda haqqında 4 aylıq ev dustaqlığı qərarı çıxarılan Ramiz Mehdiyevin mühüm rolu olub. Belə ki, Göyçayda doğulan Rzayev bu rayonda dəbdəbəli villaya malik Mehdiyevin "qulluğunda dayanmağa" başlayıb. 2000-ci illərin ortalarından başlayaraq onunla bağlı "boz kardinal"a müsbət referansı isə sabiq nəqliyyat naziri Ziya Məmmədovun verdiyi bildirilir.

Qəzetimizə daxil olan məlumatda qeyd edilir ki, Rzayevlə Ziya Məmmədov arasında körpünü yaradan şəxs sonuncunun bacısı oğlu Mənsur Məmmədov sayılır. Belə ki, 2007-2015-ci illərdə Göyçaya rəhbərlik edən M.Məmmədov bu vəzifədə işləyərkən Rzayevlə tanış olub, sonra da onu nazir dayısı ilə tanış edib, çox keçmədən isə Rzayev birdən-birə icra başçılığına yüksəlib.

Başqa bir iddiaya görə isə Balakənin DTX tərəfindən saxlanılan icra başçısının bu vəzifəyə təyin olunmasının arxasında SOCAR-ın sabiq vitse-prezidenti, ölkənin gizli oliqarxlarından biri Mikayıl İsmayılov dayanıb. İsmayılovla Rzayevin tələbə yoldaşı, bundan başqa, çox yaxın münasibətlərə malik olduqları deyilir. Bildirilir ki, Ramiz Mehdiyev klanına mənsub olan İsmayılov "boz kardinal"la əlaqələrindən istifadə edərək Rzayevin Balakənə icra başçısı göndərilməsinə nail olub.

Hər bir halda Rzayev "Mehdiyev şəbəkəsi"nin mənsubudur və onun məhz indi DTX tərəfindən saxlanılması təəccüblü deyil.

"Unikal"a danışan başqa bir mənbə isə 2019-cu ildə Azərbaycanda DTX tərəfindən keçirilən anti-korrupsiya əməliyyatları nəticəsində çox sayda iri məmurun, o cümlədən, nazir, nazir müavini və icra başçılarının ya postunu itirdiyinə, ya da qandallandığına diqqət çəkərək həmin yüksək vəzifələrin əsasən Ramiz Mehdiyevlə yaxınlığını vurğulayıb. "Boz kardinal"ın ətrafında son baş verənləri nəzərə aldıqda İslam Rzayevin saxlanılmasına həm də "Mehdiyev şəbəkəsi"nin tam zərərsizləşdirilməsinin bir həlqəsi olaraq baxmaq lazım gəldiyini düşünən mənbəmizin fikrincə, qarşıdakı müddətdə həbs dalğası, böyük ehtimalla, daha da genişlənəcək.

Xatırladaq ki, İ.Rzayev bu il DTX tərəfindən həbs edilən ikinci icra başçısıdır. Bundan əvvəl iyunun 20-də Balakənlə qonşu olan Qax rayonunun icra başçısı Musa Şəkiliyev də əməliyyat çərçivəsində saxlanılmışdı. Ertəsi gün isə ölkə başçısının imzaladığı Sərəncama əsasən Musa Şaban oğlu Şəkiliyev vəzifəsindən azad edilmişdi.

Hazırda Şəkiliyev qulluq mövqeyindən istifadə etməklə xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə cinayətində ittiham olunur. İyunun 21-də Səbail Rayon Məhkəməsində onun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

***Sənan Mirzə***

# SSRİ bayrağı qaldıran Saleh Səmədov qalmaqalında yeni pərdə

## "Rus imperiyası aşiqi"nin oğulları niyə ard-arda işdən çıxarıldı? - İlginc detallar

***İmişli Rayon Ağsaqqallar Şurasının sabiq sədri Saleh Səmədovun daha iki oğlu vəzifədən uzaqlaşdırılıb. Beş ay əvvəl Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən mənimsəmə ittihamı ilə həbs edilən Səmədovun ümumilikdə üç oğlu müxtəlif vəzifələrdə çalışıblar. Əvvəlcə onun İmişli Rayon İcra Hakimiyyətində Yeni Bəhramtəpə İnzibati Ərazi Dairəsi üzrə nümayəndənin müavini işləyən oğlu Kamran Səmədov vəzifədən azad edilib.***

Bu günlərdə isə Səmədovun ikinci oğlu Toğrul Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində fəaliyyət göstərən 3 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsinin rəisi vəzifəsindən azad edilib. Ona qarşı bu addım ədliyyə orqanlarında xidmətində aşkar edilmiş nöqsanlarla əlaqədar atılıb. Sonradan yerli KİV yazıb ki, Şabranda yerləşən 3 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsinin rəisi Toğrul Səmədovla bağlı qərarı şəxsən ədliyyə naziri Fərid Əhmədov özü verib. "Məlumata görə, ədliyyə naziri Fərid Əhmədov cəzaçəkmə müəssisələrinə baş çəkən zaman qarşılaşdığı mənzərədən sonra bu addımı atıb. Belə ki, Toğrul Səmədov iş yerində özü üçün xüsusi dəbdəbəli malikanə yaradıbmış. Tikintidə xüsusilə bahalı materiallardan istifadə olunduğu deyilir" deyə xəbərdə bildirilib.

"Toğrul Səmədovun otağındakı mebellər xaricdən, baha qiymətə alınmışdı. O, bura xeyli miqdarda pul xərcləmişdi", - deyə "Oxu24"ü məlumatlandıran mənbə bildirib.

Toğrulun ardınca isə Saleh Səmədovun üçüncü oğlu Mehralı da vəzifəsindən kənarlaşdırılıb. Bildirilib ki, bu barədə müvafiq əmr imzalanıb.

O, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyindəki şöbə rəisi vəzifəsindən azad edilib. "Qafqazinfo"nun yazdığına görə, bundan bir neçə gün öncə isə Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi general-mayor İlqar Abbasov da vəzifəsindən azad edilib. Araşdırma nəticəsində generalın da Saleh Səmədovla əlaqəsi olduğu, ona qurumun yaradılmasının 30 illiyinə həsr edilmiş medalla təltif etdiyi üzə çıxıb.

Səmədovun iki oğlunun ard-arda işdən azad olunmasının ölkə gündəmini "Ramiz Mehdiyev işi" barədə xəbərlərin zəbt etdiyi bir vaxta təsadüf eləməsi maraq doğurur. Məlumdur ki, məhz Rusiya-Azərbaycan münasibətlərində gərginlik pik həddə olanda - bu il mayın 9-da İmişli Rayon Ağsaqqallar Şurasının sədri Saleh Səmədov SSRİ bayrağı altında, sinəsində rus imperiyasının rəmzi olan "Georgi lenti" ilə tədbir təşkil etmişdi. İddiaya görə, S.Səmədov Mehdiyevin köhnə dostlarından və biznes ortaqlarından biridir. O, sözügedən tədbirdən az sonra Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilib. Səmədova qarşı Cinayət Məcəlləsinin 179-cu maddəsi ilə ("mənimsəmə və ya israf") ittiham irəli sürülüb. Oktyabrın 6-da məhkəmənin qərarı ilə Saleh Səmədov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.



Qeyd edək ki, may ayında Saleh Səmədovun qardaşları ilə bağlı bəzi maraqlı faktlar da üzə çıxıb. Sabiq sədrin qardaşı Atababa Səmədov 2018-ci ildə dələduzluğa görə həbs edilib. A.Səmədov ayrı-ayrı şəxslərə qarşı müxtəlif vaxtlarda ümumi məbləği 320 min ABŞ dolları miqdarında dələduzluq edib. O, aldatdığı şəxslərə aldığı pulların müqabilində tikinti materialları gətirəcəyinə söz verib. Daha sonra onun barəsində həbs qətimkan tədbiri seçilib. Saleh Səmədovun kiçik qardaşı Sahib Səmədov isə işində yol verdiyi nöqsanlara görə işdən çıxarılıb.

Bu ilin may ayında axar.az saytında yazılan məlumata əsasən, S.Səmədov yol hərəkəti qaydasını ciddi şəkildə pozduğu üçün yol polisi tərəfindən saxlanılıb. Yol polisi əməkdaşı ondan sənədlərini tələb edib. S.Səmədov isə həm polisi, həm də rayon polis şöbəsinin rəisi Azər Tağıyevi ağır söyüşlərlə, bir insana, xüsusilə "ağsaqqal" adına yaraşmayan ifadələrlə təhqir edib. Bildirib ki, rayonun rəisi belə onun maşınını saxlatdırmağa cəsarət edə bilməz. Onun təhqirləri, rayon rəhbərliyi, polis rəisi və hüquq-mühafizə orqanları haqda dediyi nalayiq ifadələr hamısı kamera qeydlərində var. Saleh Səmədovun harınlığı və bu təhqirlərinə görə İmişli RPŞ-nin rəisi polkovnik Azər Tağıyevin təkidi ilə iş məhkəməyə təqdim edilib və S.Səmədov 30 sutkalıq inzibati qaydada həbsə məhkum edilib. Həmin vaxt S.Səmədov öz əlaqələrindən maksimum istifadə etməyə çalışıb və polis rəisinə təzyiqlər də etdirib, lakin nəticə əldə edə bilməyib. S.Səmədovun yaxın dostu olduğu bildirilən məşhur deputatlardan biri də işə qarışıb, ancaq o da heç nəyə nail ola bilməyib. Buna baxmayaraq, apellyasiya şikayəti zamanı cəzanın 15 sutkaya salınmasına nail ola biliblər. Səmədov 15 günlük cəzasını günə-gün çəkib və yalnız bundan sonra azadlığa buraxılıb.

"Rus imperiyası aşiqinin" dostu və biznes ortağı olduğu barədə xəbərlərin yayıldığı Ramiz Mehdiyev hazırda Cinayət Məcəlləsinin 278.1-ci (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər) və 274-cü (dövlətə xəyanət) maddələrilə ittiham olunur. Bir çoxlarının fikrincə, bunlar təkbaşına törədiləcək cinayətlər deyil. Ona görə də Mehdiyevin cinayətkar şəbəkəsi barədə danışılır. Həmçinin sabiq "boz kardinal"ın Rusiya ilə gizli və şübhəli əlaqələri də müzakirə mövzusudur. Sadalananlar fonunda SSRİ bayrağı altında, sinəsində rus imperiyasının rəmzi olan "Georgi lenti" ilə tədbir təşkil edən Saleh Səmədovun iki oğlunun, üstəlik ard-arda şəkildə məhz indi vəzifədən kənarlaşdırılması təsadüfi təsir bağışlamır.

***Toğrul Əliyev***



## Məhkəmədə Tovuz döyüşlərindən sonra lentə alınmış videomaterial nümayiş etdirilib

***Oktyabrın 30-da Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi sənədlərin elan olunması ilə davam etdirilir.***

"Unikal" xəbər verir ki, məhkəmə iclasında təqsirləndirilən şəxs Davit İşxanyanın müraciəti əsasında 2020-ci ildə Tovuz hadisələrindən (Tovuz döyüşləri - red.) sonra lentə alınmış videomaterial tədqiq olunub. Xatırladaq ki, D.İşxanyanın vəkili oktyabrın 24-də keçirilən məhkəmə iclasında həmin videonun tədqiqi üçün vəsatətlə çıxış etmişdi.

"Youtube" sosial şəbəkəsində 2020-ci il avqustun 28-də yerləşdirilmiş video nümayiş etdirilib. Videomaterialda Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən Sərdarabadda Ermənistan hərbçiləri təltif edilir. Arayik Harutyunyanın da iştirak etdiyi tədbirdə çıxış edən Nikol Paşinyan bildirib ki, təltif olunanların hamısı iyul döyüşlərinin fəal iştirakçılarıdır.

Dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs Arayik Harutyunyana suallar ünvanlayıb. Əvvəlcə qeyd edib ki, videoda iyul döyüşlərində iştirak edən Ermənistan hərbçiləri təltif olunur. "Həmin tədbirə hansı məqsədlə və hansı statusla dəvət olunmuşdunuz?

2020-ci il iyunun 19-da Ermənistan Respublikası və qondarma qurumun birgə Təhlükəsizlik Şurasının iclası keçirilib. Orada iştirakınızın məqsədi nə idi? Siz məhkəmə istintaqı zamanı bildirmisiniz ki, iyul döyüşlərinin qondarma rejimlə heç bir əlaqəsi olmayıb. Bu iclas hansı zərurətdən yaranmışdı və hansı məsələlər müzakirə edilib?", - deyə dövlət ittihamçısı suallar verib.

Təqsirləndirilən şəxs cavabında bildirib ki, qondarma qurumun "nümayəndələri" Ermənistan Respublikasında keçirilən bu cür tədbirlərə daim dəvət olunurdu. İclasda isə Ermənistan Respublikasının təhlükəsizlik məsələləri, ordunun hazırlıq vəziyyəti və ehtimal olunan müharibə ssenariləri müzakirə edilib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

41_27 IYUI-QARA.qxd 10/30/2025 8:24 PM Page 11



## Peşəkar mühasib sertifikatı imtahanının II mərhələsi keçiriləcək



***Dövlət İmtahan Mərkəzi (DİM) noyabrın 2-də peşəkar mühasib sertifikatı imtahanının II mərhələsini (qanunvericilik üzrə) keçirəcək.***

Mərkəzdən "Unikal"a bildirilib ki, imtahan vermək üçün 782 nəfər müraciət edib.

İmtahan Bakıda DİM-in elektron imtahanlar korpusunda, Naxçıvanda isə 4 nömrəli məktəbdə kompüterlər vasitəsilə keçiriləcək. Bu imtahanda iştirak etmək üçün qeydiyyatdan keçənlər imtahanın demo versiyası ilə keçid vasitəsilə tanış ola bilərlər.

İmtahan saat 11:00-da başlanır. Saat 10:45-dən sonra gələn namizədlər imtahan binasına buraxılmırlar. İmtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, pozan, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək qadağandır.

Ümumilikdə 3 saat davam edən imtahanda namizədə seçdiyi peş?kar mühasib sertifikat növün? aid qanunvericilik üzr? 40 test tapşırığı t?qdim olunur.

Namizədlər imtahana buraxılış vərəqəsini buradan çap edə bilərlər. Həmin səhifədə imtahan iştirakçısının "Yaddaş kitabçası" da yerləşdirilib.

Namizədlər imtahan günü buraxılış vərəqəsində göstərilən vaxtda imtahan verəcəyi binanın qarşısına gəlməli (imtahan binası, imtahanın tarixi və vaxtı haqqında məlumat imtahana buraxılış vərəqəsində göstərilib), özləri ilə mütləq aşağıdakı sənədləri gətirməlidirlər:

- Şəxsiyyəti təsdiq edən sənədin əsli (şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu);
- İmtahana buraxılış vərəqəsi.

İmtahanın keçirilməsi üçün 2 ümumi imtahan rəhbəri, 10 imtahan rəhbəri, 54 nəzarətçi, 7 buraxılışı rejimi əməkdaşı (mühafizə) cəlb olunub.

## Vüqar Qurbanovdan həkim çatışmazlığı ilə bağlı etiraf

***"Əksər rayonlarda həkim çatışmazlığı müşahidə olunur. Bu, təkcə Azərbaycanda deyil, demək olar ki, bütün dünyada mövcud olan problemdir".***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, həkimlərin yetişdirilməsi uzunmüddətli bir prosesdir və bu səbəbdən ölkədə, xüsusən də regionlarda bu çətinlik hiss olunur: "Bu problemi aradan qaldırmaq məqsədilə "Mental Klinika" layihəsi həyata keçirilir. Layihə çərçivəsində ilin sonuna qədər elə bir sahə qalmayacaq ki, orada hər hansı ixtisas üzrə həkim çatışmazlığı mövcud olsun".

## Həkimlərin maaşları artırıla bilər

***"Abşeron Mərkəzi Xəstəxanası rayon üzrə əhaliyə xidmət göstərən yeganə tibb müəssisəsidir. Son illərdə xəstəxananın fəaliyyət istiqamətləri genişləndirilib, göstərilən tibbi xidmətlərin çeşidi artırılıb. Əvvəllər burada ağır əməliyyatlar həyata keçirilmədiyi halda, hazırda xəstəxana bütün növ tibbi xidmətləri özündə cəmləşdirir".***

"Unikal" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov deyib.

O qeyd edib ki, bu dəyişikliklərin nəticəsində gün ərzində 3 mindən çox şəxs xəstəxanaya müraciət edir: "Ümumiyyətlə, TƏBİB tabeli tibb müəssisələrinə artan müraciət sayına baxmayaraq, növbələrin minimuma endirilməsi istiqamətində tədbirlər görür. İlk növbədə Vətən müharibəsi qaziləri, şəhid ailələri və əlillər üçün növbəsiz keçid imkanı yaradılıb. Bununla yanaşı, qeydiyyatçıların sayı da artırılıb. Həmçinin Bakıda və regionlarda fəaliyyət göstərən bir sıra tibb müəssisələrində monitorların quraşdırılması təmin edilib. Müəssisələrin qəbul həcminə uyğun olaraq, monitorların sayı 1-dən 10-a qədər dəyişir. Hazırda monitor çatışmazlığı ilə bağlı heç bir tibb müəssisəsində problem müşahidə edilmir".

Vüqar Qurbanovun sözlərinə görə, yaxın gələcəkdə həkimlərin və orta tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı layihələr hazırlanır və bu layihələrin təqdimatı planlaşdırılır.

# İqbal Məmmədovun 1,5 milyon manatlıq dərdi

## Sabiq deputat-biznesmen borc bataqlığından qurtula bilmir - Bu işin axırı necə olacaq?

***Milli Məclisin sabiq deputatı İqbal Məmmədova məxsus "Kaspi Yıldız" şirkətinin 1 milyon 438 744 manat vergi borcu yaranıb. "Teleqraf"ın məlumatına görə, bu, şirkətin əvvəlki illərə nisbətdə ən az vergi borcudur. Belə ki, 2022-ci ildə bu məbləğ 10 milyon manata yaxın idi.***

2022-ci ildə yerli media yazıb ki, qanuni təmsilçisi Əliyev Asif Məmmədov 2006-2013-cü illərdə Balakən və Şamaxı rayonlarının İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyib.

"Unikal"ın araşdırmasına görə, 2022-ci ilin yanvar ayında "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin Türkiyə vətəndaşı olan təsisçilərindən biri Rafet Ekmekçioğlu özünə məxsus 50% payı İqbal Məmmədova verib. Nəticədə "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin təsisçisi 100% pay ilə millət vəkili İqbal Məmmədov olub.

İqbal Məmmədovun təsis etdiyi şirkət uzun müddət dövlət büdcəsinə olan böyük miqdarda vergi borcuna görə mətbuatda müzakirə olunub. Hətta iki il öncə "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin dövlət büdcəsinə 9 milyon 399 min 623 manat 41 qəpik vergi borcu olduğu açıqlanıb. Həmin vaxt diqqət çəkən bir nüans da vardı: Lerikin keçmiş deputatı İ.Məmmədov mətbuata "Kaspi Yıldız"la bağlı danışarkən şirkətin onun adına olması barədə iddiaları təkzib etmişdi: "Mən deputat olana qədər "Kaspi Yıldız" öz adıma idi. Parlament üzvü olduqdan sonra bütün biznesimi ailə üzvlərimin adına keçirdim. Deputatam deyə biznesimi yad adama bağışlayası deyildim ki..."

2024-cü ilin sentyabrındakı parlament seçkilərində Milli Məclisdən kənarda qalan İqbal Məmmədovun çox keçmədən dövlətə olan milyonlarla borcunu ödədiyi diqqət çəkmişdi. O, parlament seçkilərindən sonra 8 milyon 123 min 438 manat 13 qəpik ödəmişdi. "Sabiq millət vəkili növbəti dəfə deputat seçilmədiyinə görə toxunulmazlıq statusunu itirib, elə ona görə də cinayət məsuliyyətindən azad edilməsi üçün 9 milyon 393 min 819 manat 13 qəpik vergi borcunun böyük hissəsini ödəməli olub" - deyə həmin vaxt KİV yazırdı.



Cəmaləddin Məzahir oğlu olan "Kaspi-Yıldız" MMC-nin hüquqi ünvanı "Nizami rayon, Özbəkistan, ev 24"-də yerləşir.

1996-cı ildə həmin ünvanda bənzər adda daha bir şirkət - "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsi də dövlət qeydiyyatına alınıb. Bu şirkətin təsisçisi 78 saylı Lerik seçki dairəsindən millət vəkili seçilmiş sabiq deputat İqbal Məmmədov idi. Nizamnamə kapitalı 45 000 dollar olan MMC-nin qanuni təmsilçisi isə Məmmədov Ramiz Fərman oğlu göstərilirdi.

Hələ 2019-cu ildə mətbuata verdiyi açıqlamada İqbal Məmmədov bildirmişdi ki, o, 2010-cu ildə deputat seçildikdən sonra müəssisəyə rəhbərliyi qardaşına həvalə edib. Bir müddət "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinə rəhbərlik edən İqbal Məmmədovun qardaşı

Xatırladaq ki, bu borc qalmaqalından bir qədər öncə isə İqbal Məmmədova məxsus olan "Relax" istirahət mərkəzində vergi yoxlamalarına görə xoşagəlməz hadisə baş vermişdi. Belə ki, 2019-cu ilin avqustunda istirahət mərkəzini işlədən deputatın oğlu Mirhəmid Nərimanlı, qardaşı oğlu Orxan Nərimanlı və bacısı oğlu Pərviz Vergilər Nazirliyinin əməkdaşlarına hücum çəkərək onları döymüşdü.

Hələ də 1,5 milyonluq borcunun qalmasından görünən odur ki, uzun müddət deputat olmaqla yanaşı, biznesmen kimi də diqqət çəkən keçmiş millət vəkili İqbal Məmmədov üçün işlər hələ də qaydasında getmir. Bu gedişlə onun öz biznesinin mühüm bir hissəsini itirə biləcəyinə dair hələ ötən ilin payızında yayılan iddiaları reallaşma ehtimalı da ağlabatan görünür. Xatırladaq ki, sabiq deputata məxsus "Relax"ın "əl dəyişdirəcəyi" - bu istirahət mərkəzinin fəaliyyətinin yeni yaradılacaq törəmə şirkəti tərəfindən qurulacağı deyilirdi. "Şirkətin qanuni təmsilçisi və baş direktoru dəyişəcək" deyə ölkə mediası yazırdı. Bu isə İqbal Məmmədovun qeyri-rəsmi sahibi olduğu şirkətlərin dövlətə milyonlarla manatlıq vergi borcu ilə izah olunurdu.

Sabiq deputat-biznesmenin illərdir düşdüyü borc bataqlığından qurtulub-qurtula bilməyəcəyini zaman göstərəcək. Lakin böyük ehtimalla belə bir qurtuluş onun öz biznesinin önəmli hissəsini itirmək hesabına başa gələcək...

***Toğrul Əliyev***

## 5.3.7. İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# “Böyük Qayıdış - Qələbədən Dirçəlişə Doğru”



***Zəfər Gününə sayılı günlər qalıb. 44 gün davam edən Vətən müharibəsi nəticəsində ölkəmizin uzun illər işğal altında qalmış torpaqları azad olundu, tarixi ədalət və ərazi bütövlüyümüz bərpa edildi. Müharibədən sonra dövlət qarşısında duran ən mühüm vəzifələrdən biri həmin ərazilərin bərpası, dirçəldilməsi və əhalinin öz doğma yurdlarına qayıdışının təmin edilməsidir. Bu strateji və milli miqyaslı proses “Böyük Qayıdış” adını alaraq uğurla davam etdirilir.***

“Böyük Qayıdış” Azərbaycan tarixində yeni mərhələnin başlanğıcıdır - bu, torpağa, mədəniyyətə, keçmişə və gələcəyə qayıdışdır. Bu proses təkcə məcburi köçkünlərin doğma yurdlarına dönməsi deyil, həm də bütövlükdə xalqımızın milli birliyinin, dövlətçilik düşüncəsinin və vətənpərvərlik ruhunun təntənəsidir.

Prezident İlham Əliyev bir çıxışında bildirib: “Biz bu torpaqlara qayıdırıq ki, bir daha heç kim bizi oradan çıxara bilməsin. Biz bu torpaqlarda əbədi yaşayacağıq!”

Qısası, “Böyük Qayıdış” təkcə fiziki məskunlaşma deyil, həm də milli-mənəvi dirçəlişdir. İşğal dövründə dağıdılmış məscidlər, abidələr, qəbiristanlıqlar bərpa olunur, mədəniyyət ocaqları yenidən fəaliyyətə başlayır.

İşğal dövründə viran qoyulmuş şəhərlər, dağıdılmış məscidlər və tarixi abidələr bu gün yenidən dirçəlir. Şuşada Cıdır düzü, Yuxarı Gövhərağa məscidi, Laçın və Kəlbəcərdəki təbiət abidələri bərpa olunur. Azərbaycan xalqı 30 illik həsrətin ardından öz doğma torpaqlarına qayıdır. Bu qayıdış təkcə bir nəsil üçün deyil, bütün gələcək nəsillər üçün ümid, inam və qürur simvoludur.

Azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri misilsiz miqyas alıb. Dövlət tərəfindən yollar, körpülər, elektrik xətləri, su sistemləri, məktəblər və xəstəxanalar inşa olunur.

Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına Horovlu kəndində görülən işlər barədə məlumat verdi. Bu kəndin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva ötən ilin oktyabrında Horovluda fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.

Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi evin, 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Cəbrayıl rayonunun Horovlu kəndində yaradılmış şəraitlə tanış olan dövlətimizin başçısı kəndə köçən sakinlərlə görüşdü, onlara mənzillərin açarlarını təqdim etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olub. Dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verildi. Bildirildi ki, 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 2 hektara yaxındır.

Prezident İlham Əliyev oktyabrın 28-də Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak edib. Ağalı kəndinin ikinci mərhələsində istifadəyə veriləcək evlərin sayı 103 ədəddir. Bunlar 55-i ikiotaqlı fərdi evlərdən, 3-ü isə üçmərtəbəli 2 bloklu “Townhouse” tipli binalardakı mənzillərdən ibarətdir. 36 ədəd birotaqlı, 12 ədəd isə ikiotaqlı mənzil inşa edilib. Kənddə bütün evlərə kommunikasiya xətləri çəkilib, yaşayış və qeyri-yaşayış binalarının hamısı qazla təmin edilib, evlərdə kombilər quraşdırılıb. Burada ümumi sahəsi 2 hektardan çox olan park salınıb. Park Ağalı və Məmmədbəyli kənd sakinləri, eləcə də qonaqlar üçün açıq istirahət və əyləncə zonası kimi fəaliyyət göstərəcək. Parkın ərazisi 5 funksional zonaya bölünüb. Bu zonalarda uşaqların istirahəti, idman fəaliyyəti və əyləncəsi üçün bütün şərait yaradılıb. Ərazidə müxtəlif ağac və kol bitkiləri əkilib. Sonra Prezident İlham Əliyev Məmmədbəyli kəndinin açılışında iştirak edib. Kənddə yaradılmış şəraitlə tanış olandan sonra dövlətimizin başçısı Məmmədbəyli və Ağalı kəndlərinə köçən sakinlərlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Beynəlxalq Əməkdaşlıq, İctimaiyyət və Mətbuat Xidməti Departamentinin direktoru İbrahim Mirzəyev “Unikal” qəzetinin sorğusuna cavabında bildirib ki, Böyük Qayıdış proqramı uğurla icra olunur.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın Tədbirlər Planı çərçivəsində Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq və yenidənqurma işləri nəticəsində adıçəkilən ərazilərdə 60 minə yaxın şəxs yaşayır. Onlar işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşıb, məşğulluq, təhsil, səhiyyə və digər sosial layihələrə cəlb ediliblər,” - deyə İ. Mirzəyev bildirib.

Onun sözlərinə görə, son iki ay ərzində işğaldan azad olunmuş digər rayonlarla yanaşı, Xocalıya da böyük köç karvanları yola düşüb: “Xocalının Seyidbəyli və Daşbulaq kəndlərinə növbəti köç karvanı yola salınıb. Xocalı rayonunun Seyidbəyli kəndinə 18 ailə - 61 nəfər, Daşbulaq kəndinə isə 8 ailə - 24 nəfər köçürülüb”.

O, həmçinin qeyd edib ki, yataqxana və digər inzibati binalarda yaşayan ailələr Xocalı rayonunun Təzəbinə kəndinə köçürülüblər: “Təzəbinə kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Təzəbinə kəndinə 12 ailə - 55 nəfər köçürülüb.”

İ. Mirzəyev bildirib ki, bu ay yola salınan digər köç karvanı Şuşakəndə çatıb. Bu mərhələdə köçürülən 116 nəfərdən ibarət 27 ailəyə mənzillərin açarları təqdim edilib.

Oktyabrın 10-da daha bir köç karvanı Xocalı rayonunun Ballıca kəndinə yola salınıb. Bu mərhələdə köçürülən 53 nəfərdən ibarət 15 ailəyə mənzillərin açarları təqdim edilib. Eyni zamanda, bu ay ərzində Xocalı rayonunun Xanyurdu kəndinə 69 nəfər, Ağdərə rayonunun Vəngli kəndinə isə 112 nəfərdən ibarət 28 ailə köçürülüb və mənzillərin açarları təqdim olunub.

Komitə rəsmisi əlavə edib ki, Böyük Qayıdış proqramı sayəsində ötən ay Kəlbəcər şəhərinə də köç karvanları yola salınıb. Kəlbəcər şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Kəlbəcər şəhərinə 32 ailə - 139 nəfər köçürülüb. İ.Mirzəyev sonda onu da bildirib ki, bu proses davam edir. Məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının uğurla icra edildiyini söyləyib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# MEDİA jurnalistlər üçün müsabiqə elan etdi

***Medianın İnkişafı Agentliyi jurnalistlər üçün müsabiqə elan edib.***

Bu barədə ”Unikal”a MEDİA-dan məlumat verilib. Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin əsas şərti müsabiqə elan olunan günədək son 3 aylıq dövr ərzində dərc olunmuş və ya yayımlanmış materialı təqdim etməkdir.

Müsabiqəyə təqdim edilən materiallar:

Jurnalist müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində çap mediası və onlayn media subyektində dərc olunmuş hər hansı bir yazısını aşağıdakı nominasiyalardan yalnız biri üzrə müsabiqəyə təqdim edir:

- ən yaxşı reportaj;
- ən yaxşı ictimai-siyasi təhlil;
- ən yaxşı sosial-iqtisadi təhlil;
- ən yaxşı müsahibə;
- ən yaxşı mədəniyyət materialı;
- ən yaxşı köşə yazısı;
- ən yaxşı jurnalist araşdırması;
- ən yaxşı oçerk.

Jurnalist müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində audiovizual media subyektində yayımlanmış və həcmi (xronometrajı) ən çoxu 5 (beş) dəqiqə olan süjetini aşağıdakı nominasiyalardan yalnız biri üzrə müsabiqəyə təqdim edir:

- ən yaxşı ictimai-siyasi reportaj;
- ən yaxşı sosial-iqtisadi reportaj;
- ən yaxşı tematik (idman, mədəniyyət və s.) reportaj.

Materialların qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 (üç) müstəqil ekspert tərəfindən həyata keçirilir.

Müsabiqənin yekununda yazılar üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə 5 (beş) jurnalist, süjetlər üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə isə 5 (beş) jurnalist və 5 (beş) operator qalib elan edilir və mükafatlandırılır.

Müsabiqəyə müraciət qəbulu 7 noyabr 2025-ci il 18:00 tarixinədək davam edəcəkdir.

MEDİA - fərdi jurnalist müsabiqəsinin keçirilməsi qaydaları ilə media.gov.az saytından ola bilərsiniz.

41_27 IYUl-QARA.qxd 10/30/2025 8:25 PM Page 13



# İtkin-şəhid Fikrət Əzizovla vida mərasimi keçirilib

***Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və nəşinin qalıqları 33 il sonra tapılan şəhid Fikrət Abbas oğlu Əzizovla vida mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Bakının Qaradağ rayonu, Qobustan qəsəbəsində mərhumun ailə üzvlərinə məxsus evdə baş tutan vida mərasimində şəhidin yaxınları, eləcə də dövlət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim başa çatdıqdan sonra onun nəşinin qalıqları Qaradağ rayonu, "Sofi Həmid Piri" qəbiristanlığında torpağa tapşırılcaq.

Qeyd edək ki, şəhid Fikrət Əzizov 13 yanvar 1961-ci ildə Bakının Qaradağ rayonu, Qobustan qəsəbəsində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak edib. F.Əzizov 1992-ci ilin 26 fevralında Xocalı şəhərində itkin düşmüş hesab edilirdi.

# Təcili yardım mobil tətbiqlə çağırılacaq

***Bir neçə həftədən sonra "e-Tabib" tətbiqində "103 xidməti" fəaliyyətə başlayacaq.***

"Unikal" xəbər verir ki, bu sözləri TƏBİB-in İcraçı direktorunun müşaviri Elşad Məmmədli 27-ci Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisi - "Medinex 2025"də deyib. Onun sözlərinə görə, təcili tibbi yardım xidmətinin 90 faiz işi elektronlaşdırılacaq.

"e-Tabib" tətbiqində olacaq "103 xidməti" sayəsində xəstəxana ambulansın təxmini çatma vaxtını görə biləcək", - E.Məmmədli qeyd edib.

# "BilBacar" müsabiqəsi yenidən başlayır

***Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə "BilBacar" müsabiqəsi yenidən başlayır.***

"Unikal" xəbər verir ki, bu barədə ETN-i məlumat yayıb. Bildirilib ki, "BilBacar" müsabiqəsi 2025/2026-cı tədris ilində 3 və 4-cü sinif şagirdlərini əhatə edəcək. Müsabiqənin bu ilki məqsədi ibtidai sinif şagirdlərində oxu savadlılığını artırmaq, mətnin məzmununu anlama, təhlil və nəticə çıxarma bacarıqlarını inkişaf etdirmək, oxu fəaliyyətlərini təşviq etmək, eyni zamanda şagirdlərə kompüter əsaslı qiymətləndirmə mühitində təcrübə qazandırmaqdır.

Müsabiqə hər dəfə 29-38 sual olmaqla tədris ili ərzində 4 dəfə keçiriləcək. Şagirdlərə yarışdan əvvəl hazırlaşmaq üçün hər dəfə əlavə suallar təqdim ediləcək.

Şagirdlər yarışda topladıqları ballara əsasən yer tutacaqlar və ən çox bal toplamış 450 şagird 2026-cı ilin iyun ayında final yarışında iştirak edəcək. Final yarışında qalib gələnlər isə müsabiqənin qalibi elan olunacaq və dəyərli hədiyyələrlə mükafatlandırılacaqlar.

# "MMK-014" və "Eliko" MMC-nin vəzifəli şəxsləri cərimələndi

***Valyuta mübadilə məntəqələri olan -"MMK-014" MMC-nin vəzifəli şəxsi 5 060 manat, "Eliko" MMC-nin vəzifəli şəxsi isə 14 169 manat cərimə edilib.***

Bu barədə "Unikal" Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir.

Məlumata görə, AMB tərəfindən aparılan cari nəzarət prosesləri çərçivəsində "Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası"nın 3.4-cü və 3.6-cı bəndlərinin tələblərinin pozulması səbəbi ilə İnzibati Xətalar Məcəlləsinin 430.3 maddəsinə müvafiq olaraq, "MMK-014" MMC-nin vəzifəli şəxsi 5 060 (beş min altmış) manat məbləğində cərimə edilib. AMB cari nəzarət prosesləri çərçivəsində "Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası"nın 3.6-cı bəndinin tələbinin pozulması səbəbi ilə İnzibati Xətalar Məcəlləsinin 430.3 maddəsinə müvafiq olaraq, "Eliko" MMC-nin vəzifəli şəxsi 14 169.23 (on dörd min yüz altmış doqquz manat, iyirmi üç qəpik) manat məbləğində cərimə edilib.

# Leyla Əliyeva "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşdü

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qəbələ rayonunda "Gənc arıçı" layihəsinin iştirakçılarından biri olan, Mıxlıqovaq kəndində yaşayan Qafarovlar ailəsinin qonağı olub.***



"Unikal" xəbər verir ki, görüş zamanı ailə üzvləri ilə səmimi söhbət edilib, onların layihə çərçivəsində qazandıqları təcrübə və gələcək planları ilə yaxından maraqlanılıb.

Ailə üzvləri bu layihənin həyata keçirilməsi təşəbbüsünə, eləcə də Leyla Əliyevanın şəxsən ziyarətinə görə səmimi minnətdarlıqlarını bildiriblər.

Məlumat üçün bildirək ki, gənc arıçı Lalə Qafarova ötən il 40 kiloqram, bu il isə 100 kiloqram bal istehsal edib. O, həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə ötən ay Kəlbəcərdə keçirilən Bal Festivalında "Gənc arıçı" layihəsinin iştirakçısı qismində çıxış edərək öz məhsullarını alıcılara təqdim edib.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin əsas məqsədi regionlarda gənc ailələrin arıçılıq sahəsinə marağını artırmaq, onların məşğulluğunu və ekoloji cəhətdən dayanıqlı kiçik ailə bizneslərini dəstəkləməkdir.

# Direktorların işə qəbuluna qeydiyyat başladı

***Ötən gün saat 11:00-dan etibarən direktor vəzifəsi vakant olan ümumi təhsil müəssisələrinə direktorların işə qəbulu prosesinin elektron sənəd qəbulu mərhələsinə start verilib.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, namizədlər 11 noyabr 2025-ci il saat 17:00-dək //miq.edu.az/direktor linkinə daxil olaraq elektron qeydiyyatdan keçə bilərlər.

"Proses Elm və Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada proqram təminatı vasitəsilə müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqə seçim və müsahibə mərhələsindən ibarət olacaq. Seçim mərhələsində namizədlərin təqdim etdiyi məlumatlar və sənədlərin düzgünlüyü yoxlanıldıqdan sonra namizədlər müsahibənin müsahibə mərhələsinə buraxılacaqlar. Sistem üzərindən təqdim edilən vakant yerlər 15.10.2025-ci il tarixinə olan məlumatlara istinad edir. Namizədlər müsahibə mərhələsinə təhsil müəssisələrində şagirdlərin sayından (501-dən çox və ya 500-dək) və müəssisələrin növündən (lisey, gimnaziya, internat tipli lisey/gimnaziya və s.) asılı olaraq ardıcıllıq əsasında dəvət olunacaqlar", - Nazirlikdən bildirilib.



Qeyd edilib ki, müsahibə mərhələsi Elm və Təhsil Nazirliyi tərəfindən yaradılmış müvafiq komissiyalar tərəfindən keçiriləcək.

Bildirilib ki, namizədlər müsahibədə liderlik və strateji idarəetmə, pedaqoji və tədris, idarəçilik və təşkilatçılıq, ünsiyyət və eləqə, problemlərin həlli və qərarvermə, rəqəmsal və texnoloji, eləcə də sosial və emosional bacarıqları üzrə qiymətləndiriləcəklər: "Hər bir namizəd nəticələrlə "Şəxsi səhifə" vasitəsilə tanış ola biləcək. Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərlə əmək münasibətləri qanunvericilikdə müəyyən olunmuş qaydada rəsmiləşdiriləcək".

# Lökbatanda 23 kilometrlik kollektor tikilir

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti Bakı şəhəri və Abşeron rayonunda yeni kanalizasiya kollektorları və tullantı sular üçün sutəmizləyici qurğuların tikintisi layihələrinə başlayıb.***



Agentlikdən "Unikal"a verilən məlumata görə, layihələrdən biri Lökbatan hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı sular üçün sutəmizləyici qurğunun tikintisidir.

Ümumi uzunluğu 23 kilometr, məhsuldarlığı gün ərzində 100 min kubmetr olan gətirici kollektorun qurulması nəticəsində bir sıra qəsəbələrin kanalizasiya təchizatı təmin ediləcək.

Həmçinin bu işlər çərçivəsində Bakı buxtasının, Xocəsən, Qırmızı, Qu və Lökbatan göllərinin ekoloji vəziyyəti yaxşılaşdırılacaq. Layihə Səbail, Yeni Yasamal, Badamdar, Qanlı gölün ətrafı, Bayıl, Bibiheybət, 20-ci Sahə və Xocasən gölü ətrafı ərazilərini əhatə edəcək.

Layihənin tikintisinə 2025-ci ildə başlanılıb və 2028-ci ildə tamamlanması nəzərdə tutulur.

Bu tipli layihələr, xüsusilə mikrotunel texnologiyası ilə qurulan kanalizasiya şəbəkələri müasir və dayanıqlı olması ilə seçilir, geniş ərazilərdə qurulma imkanı və əhalinin məmnunluq səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

Görülən işlər yeni kollektorlar vasitəsilə daşınan tullantı suların sutəmizləyici qurğulara ötürülməsi və təmizlənməsinə, su hövzələrinin çirklənməsinin qarşısının alınmasına xidmət edəcək.

41_27 IYUl-QARA.qxd 10/30/2025 8:25 PM Page 14



# Statistikanın cəmiyyətə təsiri və Ümumdünya Statistika Günü

***Müasir dövrdə informasiya cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvələrindən biridir. Bu informasiyanın əsaslı, dəqiq və obyektiv olmasını təmin edən başlıca vasitələrdən biri statistik məlumatlardır. Statistik məlumatlar dövlətlərin idarə olunmasında, sosial-iqtisadi planlaşdırmada, ictimaiyyətin məlumatlandırılmasında və elmi tədqiqatlarda əvəzsiz rol oynayır. Həm dövlət qurumları, həm də cəmiyyətin müxtəlif təbəqələri statistik məlumatlar əsasında qərarlar qəbul edir, vəziyyəti qiymətləndirir və gələcəyi planlaşdırır.***



Statistika - məlumatların toplanması, təsnifatı, təhlili, interpretasiyası və nəticələrin çıxarılması ilə məşğul olan elmdir. Əsas məqsədi müşahidə edilən hadisə və proseslər haqqında obyektiv və dəqiq informasiya təqdim etməkdir. Statistika yalnız rəqəmlərin sadə şəkildə qeyd olunmasından ibarət deyil. Ondan bu məlumatlar əsasında meyilləri aşkar etmək, proqnozlar vermək və elmi və ya praktiki qərarlar qəbul etmək üçün istifadə olunur. Müasir dövrdə statistika yalnız riyazi və texniki sahələrlə məhdudlaşmır o, cəmiyyətin bütün sahələrinə iqtisadiyyat, səhiyyə, təhsil, idarəetmə, sosial elmlər, ekologiya və daha çoxuna əhəmiyyətli təsir göstərir. Cəmiyyətin inkişafı üçün əsaslı qərarların verilməsi statistik məlumatlara əsaslandıqda daha səmərəli və effektiv olur.

Dövlətlər və hökumət orqanları müxtəlif sosial və iqtisadi layihələri hazırlayarkən statistik göstəricilərdən istifadə edirlər. Məsələn, işsizlik səviyyəsi, yoxsulluq nisbəti, əhalinin yaş strukturu kimi məlumatlar sosial proqramların və iqtisadi strategiyaların hazırlanmasında əsas rol oynayır. Statistik məlumatlar olmadan qərarlar subyektiv və qeyri-dəqiq ola bilər, bu isə ictimai narazılıqlara səbəb ola bilər. Beləliklə, statistika iqtisadi sabitliyin və inkişafın təmin olunmasında mühüm vasitəyə çevrilir.

BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli, 69/282 nömrəli Qətnaməsinə uyğun olaraq 2025-ci ilin 20 oktyabr tarixində Azərbaycan Respublikasında Ümumdünya statistika günü qeyd olundu. 2025-ci ildə Ümumdünya Statistika Günü artıq dördüncü dəfə keçirildi.

2025-ci ilin 4-7 mart tarixlərində Nyu York şəhərində BMT-nin Statistika Komissiyasının 56-cı sessiyası və məlumatların idarə olunmasına həsr olunmuş Rəsmi Statistika üzrə Yüksək Səviyyəli Forum keçirilmişdir. BMT-nin Statistika Komissiyasının 56-cı sessiyasında Ümumdünya Statistika Günü ilə bağlı BMT Baş katibinin məruzəsi təqdim olunaraq bu əlamətdar günün beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır. Bu şüar ölkələrin və cəmiyyətlərin inkişafında düzgün və hər kəs üçün əlçatan statistik məlumatların vacibliyini vurğulayır. Azərbaycan da bu çağırışa qoşularaq məlumatların şəffaflığını və əlçatanlığını artırmaq üçün rəqəmsal imkanlardan geniş istifadə edir.

Azərbaycanda Ümumdünya Statistika Günü hər dəfə maarifləndirici tədbirlərlə müşayiət olunur. Bu dəfə də Dövlət Statistika Komitəsi Ümumdünya statistika gününün yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədilə silsilə tədbirlər həyata keçirilmişdir.

24-26 sentyabr tarixlərində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 73-cü iclası keçirilmişdir. Forum statistika sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsi, habelə Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ölkəyə rəhbərlik etdiyi dövrdə statistikanın müasirləşdirilməsinə, şəffaflığın təmin olunmasına və beynəlxalq standartlara uyğunlaşdırılmasına xüsusi diqqət göstərmişdir. Bu dövrdə həyata keçirilən proqramlar nəticəsində Azərbaycanda statistik sistem müasir texnologiyalara əsaslanan, vətəndaşlara açıq və beynəlxalq təşkilatlarla uzlaşan bir quruma çevrilmişdir. Əvvəllər kağız üzərində toplanan və əl ilə işlənən məlumatlar artıq tam elektron sistemlər vasitəsilə toplanır və emal olunur. Dövlət Statistika Komitəsi tərəfindən yaradılan interaktiv portal vasitəsilə istənilən şəxs statistik məlumatlara sərbəst çıxış əldə edə bilir. Bu şəffaflıq, həm vətəndaş cəmiyyəti, həm də beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilir. Statistik məlumatların beynəlxalq metodologiyalara uyğun təqdim olunması, Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmlənməsinə də təsir göstərmişdir. Prezident İlham Əliyevin dövründə statistika sadəcə bir məlumat toplama vasitəsi deyil, dövlətin inkişaf strategiyasını formalaşdıran mühüm alətə çevrilmişdir. Onun rəhbərliyi ilə bu sahədə həyata keçirilən dövlət proqramları, rəqəmsallaşma, şəffaflıq, beynəlxalq standartlara uyğunlaşma və əhalinin siyahıyaalınması kimi mühüm addımlar ölkənin sosial-iqtisadi inkişafına ciddi töhfə vermişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra statistik sistemin formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində ardıcıl addımlar atmışdır. Bu istiqamətdə qəbul olunmuş bir neçə Dövlət Proqramı ölkədə statistikanın inkişafına təkan vermiş və beynəlxalq standartlara uyğunlaşmasına zəmin yaratmışdır. Dövlət Proqramları rəsmi statistik sistemin müasirləşdirilməsi, keyfiyyətli məlumatların toplanması, statistik metodologiyaların təkmilləşdirilməsi və rəqəmsallaşma kimi sahələri əhatə edir. Bu proqramlar vasitəsilə statistik məlumatların dəqiqliyi artır, məlumatların idarə olunması və yayımı şəffaflaşır, vətəndaşların və dövlət qurumlarının ehtiyaclarına uyğun statistik xidmətlər göstərilir. Statistika sahəsində ümumilikdə 6 Dövlət Proqramı qəbul edilmişdir.

Statistika müasir cəmiyyətin inkişafında strateji əhəmiyyət daşıyan bir alət kimi çıxış edir. O, yalnız sadə rəqəmlərin toplanması və göstərilməsi deyil, həm də bu rəqəmlər əsasında səmərəli qərarların qəbul olunması, resursların düzgün bölüşdürülməsi, problemlərin vaxtında aşkarlanması və gələcəyə dair planların qurulması üçün əsaslı zəmin yaradır.

Statistika yalnız rəqəmlər deyil o, inkişafın yol xəritəsidir.

***Əhməd Lətifov***
***Ağdaş Rayon***
***Statistika İdarəsinin aparıcı məsləhətçisi***

## Milli Kitabxanada "30 oktyabr - Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü" adlı kitab sərgisi açılıb

***30 oktyabr - Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günüdür. Bu günün qeyd olunması1974-cü ildən başlanır. Həmin il keçmiş SSRİ-də məhkum edilmiş iki siyasi məhbusun həbsxanada belə bir təşəbbüslə çıxış etməsi nəticəsində bu tarix Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü kimi qəbul olunub.***

Azərbaycan da keçmiş SSRİ dönəmində siyasi repressiyalardan ən çox zərər çəkmiş ölkələrdəndir. 1920-ci illərdən başlayaraq 30 ildən artıq davam edən repressiyalar nəticəsində Azərbaycanda həyatını itirənlərin sayının 70-120 min nəfər arasında olduğu ehtimal edilir. Onların təqribən 29 mini ziyalılar olub.

Milli Kitabxanada repressiya qurbanlarının xatirəsinə həsr olunmuş "30 oktyabr - Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü" adlı kitab sərgisi açılıb.

Sərgidə XX əsrin dəhşətli hadisələrindən sayılan Azərbaycan ziyalılarına qarşı aparılan soyqırım siyasəti, stalinizmin amansız repressiyalarının qurbanı olmuş görkəmli elm, incəsənət və mədəniyyət xadimlərinin həyatı, elmi fəaliyyəti, bədii yaradıcılığı, faciəli taleləri və zindan həyatı haqqında əsərlər, monoqrafiyalar, arxiv sənədləri əsasında nəşr olunan Azərbaycan və xarici dillərdə kitablar nümayiş olunur.

## 2025-ci ilin yanvar-iyun ayları üzrə Yevlax şəhərində əmək bazarının vəziyyəti haqqında rəqəmlər

***2025-ci ilin yanvar-may aylarında məşğul əhalinin 12248 nəfərini muzdla işləyənlər təşkil etmişdir. Muzdla işləyənlərin 1956 nəfəri və ya 16,0 faizi maddi istehsal sahələrində, 10292 nəfəri və ya 84,0 faizi xidmət sahələrində çalışırlar.***

Muzdla işləyənlərin 64,2 faizi dövlət sektorunda, 35,8 faizi isə qeyri-dövlət sektorunda çalışırlar.

Muzdla işləyənlərin 7,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 7,2 faizi sənaye sahəsində, 1,0 faizi tikinti sahəsində, 27,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 1,3 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində, 0,6 faizi informasiya və rabitə sahəsində, 1,3 faizi maliyyə və sığorta fəaliyyəti sahəsində, 0,5 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət sahəsində, 3,0 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi sahəsində, 8,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində, 29,3 faizi təhsil sahəsində, 7,3 faiz əhaliyə səhiyyə və sosial xidmətinin göstərilməsi sahəsində, 4,7 faiz istirahət, əyləncə və incəsənət fəaliyyəti sahəsində, 0,2 faizi isə digər xidmətlərin göstərilməsi sahəsində olmuşdur.

2025-ci ilin yanvar-may aylarında orta aylıq nominal əməkhaqqı 684,9 manat təşkil etmiş və 2024-cü ilin yanvar-may ayları ilə müqayisədə 11,2 faiz çox olmuşdur.

***Hazırladı, Yevlax Şəhər***
***Statistika İdarəsinin aparıcı***
***məsləhətçisi Xalidə Quliyeva***

41_27 IYUl-QARA.qxd 10/30/2025 8:25 PM Page 15



# Ermənistanda hərbi xidmət müddəti 6 ay azaldıldı



***2025-ci il yanvarın 1-dən Ermənistanda məcburi hərbi xidmət müddəti altı ay azaldılır.***

"Unikal" xəbər verir ki, Ermənistan hökuməti "Hərbi xidmət və hərbi qulluqçuların statusu haqqında" qanuna dəyişiklik layihəsini təsdiqləyib.

Dəyişikliyin məqsədi müqavilə əsasında xidmət edən hərbi qulluqçuların sayının artırılması hesabına icbari xidmət müddətinin azaldılmasıdır.

Yeni dəyişiklikdə 2025-ci ilin qış çağırışından başlayaraq məcburi hərbi xidmətin əvvəlki kimi 24 ay deyil, 18 ay olması nəzərdə tutulur. Bu isə o deməkdir ki, 2026-cı ilin yanvar ayında həqiqi hərbi xidmətə çağırılan əsgərlər 2027-ci ilin iyulunda xidmətini başa vuracaqlar.

Hökumət həmçinin bu dəyişikliyin 2027-ci ilin ikinci yarısından başlayaraq xərclərin azaldılmasına gətirib çıxaracağını proqnozlaşdırır. Qanunvericilik təşəbbüsü tezliklə müzakirə və təsdiq üçün parlamentə göndəriləcək.

***Ağarza Elçinoğlu***

# Tramp və Cinpin arasında danışıqlar 100 dəqiqə çəkdi

***Cənubi Koreyanın Busan şəhərində Çin prezidenti Si Cinpinlə ABŞ prezidenti Donald Tramp arasında danışıqlar 1 saat 40 dəqiqədən sonra başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Çin Mərkəzi Televiziyası məlumat yayıb. Danışıqların təfərrüatları barədə məlumat verilməyib.

Qeyd edək ki, liderlər sonuncu dəfə 2019-cu ildə görüşüblər.

***Gülayə Mecid***

# "Brüsseldən obyektiv qiymətləndirmə gözləmək çətindir" - Nazir



***İnteqrasiya məsələsi Avropa İttifaqının siyasi aləti olduğundan, Brüsseldən obyektiv və müsbət qiymətləndirmələr gözləmək çətindir.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili açıqlayıb.

O, noyabrın 9-da dərc olunması planlaşdırılan Avropa Komissiyasının genişlənmə ilə bağlı hesabatı barədə danışarkən deyib: "Ümumiyyətlə, görürük ki, Avropa inteqrasiyası ilə bağlı bütün məsələlər Brüssel tərəfindən siyasi məqsədlər və alət kimi üçün istismar olunu. Mən bu hesabatın da bunun üçün bir növ alətə çevriləcəyini istisna etmirəm".

Boçorişvilinin sözlərinə görə, Brüssel Gürcüstanda baş verən prosesləri obyektiv qiymətləndirməyə o qədər də meylli deyil, ona görə də hesabatda müsbət qiymətləndirmələr gözləmir.

Xarici işlər naziri əlavə edib ki, Gürcüstan beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirir və görülən işlərə görə Aİ-dən təşəkkür məktubu alıb.

***Ağarza Elçinoğlu***

# "Türkiyə ilə sərhədin açılması an məsələsidir" - Ermənistanın baş naziri

***"Türkiyə ilə sərhədin açılmasına ciddi maneə yoxdur".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib. Onun sözlərinə görə, Türkiyə ilə diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması an məsələsidir: "Düşünürəm ki, bu, baş verəcək. Biz tam diplomatik münasibətlərimiz, açıq sərhədlərimiz, iqtisadi və siyasi əməkdaşlığımız və normal qonşu olacağımız nöqtəyə çatırıq. İnanıram ki, bu məqam yaxınlaşır".

***Gülayə Mecid***

# "Artıq sülh bərqərar olub" - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan 8-ci Paris Sülh Forumu çərçivəsində "Yol ayrıcında liderlik" mövzusunda müzakirədə iştirak edib.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, Paşinyan sual-cavab formatında keçirilən müzakirədə Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması, regiondakı vəziyyət və kommunikasiya yollarının açılması üçün atılan addımlardan danışıb.

Baş nazir qeyd edib ki, Ermənistanla Azərbaycan arasında artıq sülh bərqərar olub və bu, reallıqdır. Bu baxımdan Nikol Paşinyan ABŞ Prezidenti Donald Trampın şəxsi səylərini




və töhfələrini yüksək qiymətləndirib.

O, daha sonra TRIPP layihəsinə toxundu və onun həyata keçirilməsinin həm Ermənistan, həm də Azərbaycan üçün vacibliyini vurğuladı: "Regional əlaqə o deməkdir ki, həm Ermənistan, həm də Azərbaycan bir-birimizin ərazisindən daxili, ikitərəfli və beynəlxalq ünsiyyət üçün istifadə etmək imkanı əldə edəcək və bu o deməkdir ki, ərazimizdən beynəlxalq tranzit üçün yeni bir marşrut açılacaq. Dünyanın hazırda təchizat zənciri böhranı yaşadığını nəzərə alsaq, bu, həqiqətən də beynəlxalq ticarət, eləcə də regionumuz üçün oyun dəyişdiricisi ola bilər".

Paşinyan əlavə edib ki, Fars körfəzindən, Oman körfəzindən Qara dənizə qədər açıq rabitə yolları olacaq, Xəzər dənizi ilə Aralıq dənizi arasında yeni bir əlaqə olacaq və Ermənistan üçün yeni imkanlar yaradılacaq.

***Ağarza Elçinoğlu***

# "Azərbaycanla birgə Cənubi Qafqazda yeni səhifə açmışıq" - Paşinyan

***"Ermənistanla Azərbaycan arasında sülh bərqərar oldu; bu bir reallıqdır və biz bunu praktikada görür və hiss edirik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan 8-ci Paris Sülh Forumunda çıxışında deyib.

"Bu, avqustun 8-də ABŞ Prezidenti Donald Trampın dəstəyi və iştirakı ilə Vaşinqtonda keçirilən sammitin nəticəsi olaraq yaradılıb. Mən bir daha prezident Trampa minnətdarlığımızı bildirmək istərdim, çünki biz təbii ki, sülh gündəmi üzərində işləyirdik, lakin onun şəxsi iştirakı olmasaydı, düşünmürəm ki, bugünkü nailiyyətlərimizə nail ola bilməyəcəkdik. Bilirsiniz ki, ABŞ-nin paytaxtı Vaşinqtonda biz Azərbaycan Prezidenti ilə sülh bəyannaməsi qəbul etdik və Prezident Tramp şahid qismində bunu imzaladı. Xarici işlər nazirlərimiz Ermənistan və Azərbaycan arasında sülh müqaviləsini ABŞ prezidentinin, Azərbaycan Prezidentinin və mənim iştirakımla parafladılar. Bu, həqiqətən də tarixi dəyişiklikdir. Bu, təkcə Azərbaycanla ikitərəfli münasibətlərimizdə deyil, həm də regionumuzda bütövlükdə iqtisadi əməkdaşlığın ilk mərhələsinə qədəm qoyub. Cənubi Qafqaz təkcə dinc deyil, həm də firavan regiona malik olsun, xüsusən də nəzərə alsaq ki, Vaşinqtonda qəbul edilmiş sülh



bəyannaməsində ərazi bütövlüyü, suverenlik, yurisdiksiya, qarşılıqlılıq və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan regional əlaqələrin açılmasına dair müddəa var".

***Gülayə Mecid***

# Rusiya Ermənistandakı seçkilərə müdaxilə edəcək - Sandu açıqladı

***Rusiya Federasiyası bölgədəki son seçkilərdən sonra strategiyasını yenidən nəzərdən keçirəcək və Moldova Respublikası da daxil olmaqla müxtəlif ölkələrin siyasi proseslərinə müdaxilə etməyə davam edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Moldova Prezidenti Maya Sandu açıqlayıb.

Sandunun sözlərinə görə, Moskva diqqətini seçkilərin ke-



çiriləcəyi gözlənilən digər ölkələrə yönəldir, postsovet məkanında və hətta inkişaf etmiş demokratiyalarda nəzarəti və təsirini qorumağa çalışır: "Rusiya Federasiyası hələ də strategiyasını təkmilləşdirir. Onlar belə nəticələr gözləmirdilər və indi öz planlarını yenidən nəzərdən keçirməyə çalışırlar. Onlar seçkilərin keçiriləcəyi digər ölkələrə diqqət yetirəcəklər. Məsələn, gələn il Ermənistanda seçkilər keçiriləcək və onlar Ermənistanda hökumət üzərində nəzarəti bərqərar etməyə çalışacaqlar".

***Ağarza Elçinoğlu***

# Pakistan-Əfqanıstan sərhədində gərginlik - 6 hərbçi həlak oldu

***Dünən gün səhər saatlarında Pakistanın Xayber Paxtunxva əyalətində, Əfqanıstanla sərhəd bölgəsində silahlı toqquşma baş verib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, baş verən silahlı toqquşmada biri zabit olmaqla 6 Pakistan əsgəri həlak olub.

Məlumata görə, hadisə "Təhrik-e-Taliban Pakistan" (TTP) qruplaşmasının üzvləri ilə təhlükəsizlik qüvvələri arasında baş verib. Bildirilib ki, Pakistan ordusunun bölmələri qruplaşmanın Doqar bölgəsində ol-



duğu barədə məlumat aldıqdan sonra əməliyyat keçirib. Əməliyyat zamanı baş verən atışmada qrupun yeddi silahlısı da məhv edilib.

41_27 IYUI-QARA.qxd 10/30/2025 8:26 PM Page 16



# AFFA "Kəpəz"i cərimələdi

***Misli Premyer Liqası təmsilçisi "Kəpəz" 10 min manat cərimələnib.***

"Unikal" xəbər verir ki, bu barədə AFFA İntizam Komitəsinin iclasında qərar qəbul olunub.




Buna IX turda "İmişli" ilə matçda yaşananlar səbəb olub. Oyununun 25-ci dəqiqəsində "Kəpəz"in qapıçısı Məmməd Hüseynov xəsarətlə nəticələnən ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə aldığı üçün 4 oyunluq diskvalifikasiya edilib. Onun klubu 1000 manat cərimələnib. Oyununun 38-ci dəqiqəsində azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə ikinci dəfə yaşandığına görə isə Gəncə klubu daha 6000 manat ziyana düşüb. Həmçinin azarkeşlər qarşılaşmanın 68-ci dəqiqəsində pirotexniki vasitədən istifadə edildiyinə görə klub daha 3000 manat cərimə olunub.

"Qəbələ" - "Neftçi" oyunu bitdikdən sonra azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə paytaxt klubu da 3000 manat ziyana düşüb.

IX turun "Araz-Naxçıvan" - "Sabah" oyununda 4 futbolçusu sarı vərəqə aldığı üçün "Sabah" 700 manat cərimələnib.

# Qurban Qurbanov "Atletik"ə məğlubiyyətə görə futbolçuları cərimələyib? - Açıqlama

***Ötən gün mətbuatda "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun bütün futbolçuları böyük məbləğdə cərimələdiyinə dair məlumat yayılıb. Qurban Qurbanovun "Atletik Bilbao" ilə oyunda futbolçularının performansından narazı qaldığı üçün belə bir addım atdığı iddia edilib.***

Məsələ ilə bağlı "Qarabağ"ın mətbuat xidmətinin rəhbəri Anar Hacıyev "Unikal"a açıqlama verib. O bildirib ki, yayılan məlumatlar əsassızdır:

"Bu iddialar yalandır. Futbolçulara heç bir cərimə tətbiq edilməyib. Komanda İspaniyadan qayıtdıqdan sonra normal qaydada məşqini edib və növbəti oyunlara hazırlaşıb", - deyə o əlavə edib.

Xatırladaq ki, Çempionlar Liqasının liqa mərhələsinin 3-cü turu çərçivəsində keçirilən "Atletik Bilbao" - "Qarabağ" matçı meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə yekunlaşmışdı.

***Murad İbrahimli***



# Voleybol üzrə Azərbaycan çempionatının oyunları təxirə salınıb

***Qadın voleybolçular arasında Azərbaycan Yüksək Liqasının oyunları təxirə salınıb.***

"Unikal" xəbər verir ki, buna səbəb qadın voleybolçulardan ibarət Azərbaycan milli komandasının 7-21 noyabr tarixlərində Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçiriləcək VI İslam Həmrəyliyi Oyunlarında iştirakıdır.



Milli komandaya klublarda çıxış edən məşqçi və oyunçuların cəlb olunmasını nəzərə alan Azərbaycan Voleybol Federasiyası ölkə çempionatının oyunlarının noyabrın 18-dək təxirə salınmasına qərar verib.

# Azərbaycan ağırlıqqaldıranı Avropa birinciliyində 3 gümüş medal qazanıb

***Ağırlıqqaldırma üzrə Azərbaycan milli komandasının üzvü Tehran Məmmədov Albaniyanın Dürres şəhərində keçirilən Avropa birinciliyində 3 gümüş medal qazanıb.***

Azərbaycan Ağırlıqqaldırma Federasiyasından verilən məlumata görə, 65 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı birdən qaldırma hərəkətində 133 kiloqram çəkini ram etməyi bacarıb. Təkanla qaldırma hərəkətində 155 kiloqram ağırlığı başı üzərinə qaldıran T. Məmmədov toplamda 288 kiloqram nəticə göstərib. Beləliklə, birdən və təkanla qaldırma hərəkətlərinin uğurlu icrasına görə 2 gümüş mükafat qazanan Tehran Məmmədov toplamda da fəxri kürsünün ikinci pilləsinə yüksəlib.





# Çempionlar Liqası: "Qarabağ" - "Çelsi" oyununun biletləri tükənir

***UEFA Çempionlar Liqasının əsas mərhələsində keçiriləcək "Qarabağ" - "Çelsi" (İngiltərə) oyununun biletləri tükənmək üzrədir.***

"Unikal" xəbər verir ki, satışda yalnız VİP yerlər üçün az sayda bilet mövcuddur. Digər sektorlar üçün ayrılan biletlər isə artıq satılıb.

Qeyd edək ki, noyabrın 5-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək "Qarabağ" - "Çelsi" görüşü saat 21:45-də başlayacaq.



# "Liverpul" yenə uduzdu

***İngiltərə Liqa Kubokunda 1/8 final mərhələsində növbəti oyunlar keçirilib.***

"Unikal" xəbər verir ki, "Çelsi" "Vulverhempton"u 4:3, "Kristal Pelas" "Liverpul"u 3:0, "Arsenal" "Brayton"u 2:0, "Mançester Siti" "Suonsi"ni 3:1, "Nyukasl" isə "Tottenhem"i 2:0 hesabı ilə üstələyərək növbəti raunda yüksəlib.

# NBA: "Denver Naqqets"dən asan qələbə, "Bruklin Nets"dən ardıcıl 5-ci məğlubiyyət

***ABŞ-ın Milli Basketbol Assosiasiyasında (NBA) növbəti oyunlar keçirilib.***

"Unikal" xəbər verir ki, ötən gecə on qarşılaşma baş tutub. "Denver Naqqets" doğma meydanda "Nyu Orleans Pelikans"a 122:88 hesabı ilə qalib gələrək, Qərb Konfransının turnir cədvəlində dördüncü yerə yüksəlib.



"Bruklin Nets" isə evdə "Atlanta Huks"a 112:117 hesabı ilə uduzaraq, bu mövsüm ardıcıl beşinci məğlubiyyətini alıb.

**Matçların nəticələri**

"Toronto Reptors" - "Hyuston Rokets" - 121:139
"Boston Seltiks" - "Klivlend Kavalyers" - 125:105
"Çikaqo Bullz" - "Sakremento" - 126:113
"Denver Naqqets" - "Nyu Orleans Pelikans" - 122:88
"Minnesota" - "Los-Anceles Leykers" - 115:116
"Detroit Pistons" - "Orlando Mecik" - 135:116
"Bruklin Nets" - "Atlanta Huks" - 112:117
"Maveriks" - "İndiana Peysers" - 107:105
"Yuta Cazz" - "Portlend Treil Bleyzers" - 134:136
"Finiks Sanz" - "Memfis Qrizzlis" - 113:114.

# "Sumqayıt" 50-yə çatdı

***Bizon Azərbaycan kubokunun 2-ci təsnifat mərhələsinin "Zaqatala" ilə oyununda vurulan 2-ci qol "Sumqayıt" üçün əlamətdar olub.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, "gənclik şəhəri" təmsilçisi ölkə kubokunda 50-ci qolunu vurub.

Yubiley topuna Nihat Əhmədzadə imza atıb. Sumqayıtın eyniadlı klubu 3:0 hesablı qələbə ilə 41-ci oyununda qol sayını 51-ə yüksəldib.

Evdə 19, səfərdə 31, neytral meydanda 1 dəfə fərqlənən "Sumqayıt" turnirin tarixində 50 və daha çox qol vuran 20-ci komandadır. Klub tarixində kubokdakı ilk qol isə 2011/12 mövsümünün 1/16 finalında "Lokomotiv"lə (Bakı) səfər matçında (2:0) vurulub.